TuranBank



# İllik Hesabat 2009

# TuranBank

Açıq Səhmdar Cəmiyyətinin
2009-cu il üzrə

# İLLİK HESABATI

# MÜNDƏRİCAT

| | |
|---|---|
| Strateji Baxış/Missiya/Dəyərlər | 3 |
| Bank haqqında ümumi məlumat | 4 |
| 2009-cu il üzrə Əlamətdar Hadisələr | 5 |
| Rəhbərlərin müraciəti | 6 |
| «TuranBank»ın Rəhbərliyi | 8 |
| Makroiqtisadiyyat | 10 |
| Bank Sistemi | 12 |
| 2009-cu ildə Bankın Əsas Maliyyə Göstəricələri | 14 |
| Müştəri Siyasəti | 16 |
| Kredit Siyasəti | 18 |
| Plastik Kartlar | 22 |
| Mikromaliyyələşdirmə | 22 |
| Xidmət Şəbəkəsi | 23 |
| İnstitutsional İnkişaf | 25 |
| İslam Bankçılığı | 27 |
| Səhmdar Kapitalı | 27 |
| Kapital İnvestisiyaları | 28 |
| Korporativ İdarəetmə | 29 |
| Risk Menecment | 30 |
| Antikrizis Menecment | 31 |
| Çirkli Pulların Yuyulması və Terrorizmin Maliyyələşdirilməsinə Qarşı görülən Tədbirlər | 32 |
| İnformasiya Texnologiyaları | 33 |
| İnsan Resursları | 34 |
| Beynəlxalq Əməkdaşlıq | 36 |
| Marketinq Fəaliyyəti | 37 |
| Müxbir Münasibətlər və Beynəlxalq Hesablaşmalar | 38 |
| Auditor Rəyi | 40 |









## STRATEJİ BAXIŞIMIZ

TuranBank ASC-ni respublikanın bütün regional mərkəzlərində satış şəbəkəsi olan, əhali, kiçik və orta sahibkarlığa xidmət göstərən, xarici investisiyalı universal bank etmək.

## MİSSİYAMIZ

TuranBank peşəkar komandası ilə müştərilərinə bütün növ bank xidmətlərini yüksək keyfiyyətlə göstərməklə, onların inkişafını dəstəkləyən, investorlarının investisiyalarının dəyərinin dinamik artımını təmin edən şəffaf bankdır.

## DƏYƏRLƏRİMİZ

Etibarlılıq
Təhlükəsizlik
Düzgünlük
Şəffaflıq
Yüksək keyfiyyətli xidmət
Müştəri ilə tərəfdaşlıq
Bankın səhmlərinin gəlirliliyi
Azərbaycan iqtisadiyyatına xidmət
Ölkə qanunlarına riayət və hörmət

# Bank Haqqında Ümumi Məlumat






| | |
|---|---|
| BANKIN TAM ADI: | «TuranBank» Açıq Səhmdar Cəmiyyəti |
| BANKIN QISA ADI: | «TuranBank» ASC |
| YARANMA TARİXİ: | 12 İyun 1992 |
| HÜQUQİ ÜNVANI: | AZ1073, İsmayıl bəy Qutqaşınlı küç., 85, Bakı şəh., Azərbaycan |
| VÖEN: | 1300016391 |
| AZƏRBAYCAN MƏRKƏZİ BANKINDA MÜXBİR HESABI: | 0137010027944 |
| KOD: | 507462 |
| SWIFT: | TURAAZ22 |
| TELEKS: | 14236 TURAN AI |
| TELEFONLAR: | +994 (12) 497 25 11, 497 25 92, 510 79 11, 510 79 22 |
| FAKS: | +994 (12) 497 25 77 510 80 33 |
| E-MAIL: | office@turanbank.az |
| WEB: | http://www.turanbank.az |

## LİSENZİYA

Azərbaycan Respublikası Mərkəzi Bankının 30.12.1992-ci ildə verdiyi 115 №-li lisenziya və bankın təşkilati hüquqi formasının dəyişməsi ilə əlaqədar 23.03.2005-ci il tarixdə yenilədiyi 115 №-li lisenziya.

## PEŞƏKAR ASSOSİASİYALARDA, BİRLİKLƏRDƏ, BİRJALARDA VƏ ÖDƏNİŞ SİSTEMLƏRİNDƏ ÜZVLÜK:

- Azərbaycan Banklar Assosiasiyası (ABA)
- Azərbaycan Mikro-Maliyyə Assosiasiyası (AMA)
- Azərbaycan İxracın və İnvestisiyaların Təşviqi Fondu (AZPROMO)
- Xəzər İnteqrasiya İşgüzar Klubu (CIBC)
- Alman-Azərbaycan İqtisadi Birliyi (DAWF)
- Kənd Təsərrüfatı Kreditləri üzrə Avrasiya Assosiasiyası (EURACA)
- Beynəlxalq Banklararası Maliyyə Telekomunikasiya Birliyi (SWIFT)
- Bakı Banklararası Valyuta Birjası (BBVB)
- «MasterCard International» beynəlxalq ödəniş sistemi
- «Western Union»
- «Contact»
- «Bıstraya Poçta»
- «Migom»
- «Express Money»
- «PrivatMoney»
- «Allure»
- «Zolotaya Korona»



### 2009-ci ilin sonuna Əsas Göstəricilər (mln AZN)

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Aktivlər | 27,9 | 41,9 | 60,5 | 82,7 | 106,1 |
| Kredit Portfeli | 24,0 | 32,3 | 47,6 | 65,5 | 76,5 |
| Depozit Portfeli | 7,9 | 13,4 | 18,2 | 30,9 | 44,8 |
| Səhmdar Kapitalı | 5,0 | 8,5 | 12,5 | 16,0 | 17,0 |
| Mənfəət | 0,8 | 1,1 | 2,7 | 2,3 | 2,0 |

### Xidmət Şəbəkəmiz

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Filialların sayı, o cümlədən: | 8 | 10 | 11 | 11 | 11 |
| - Bakı şəhərində | 5 | 6 | 6 | 6 | 6 |
| - regionlarda | 3 | 4 | 5 | 5 | 5 |
| Mübadilə şöbələrinin sayı, o cümlədən: | 23 | 6 | 15 | 23 | 21 |
| - Bakı şəhərində | 22 | 5 | 13 | 21 | 19 |
| - regionlarda | 1 | 1 | 2 | 2 | 2 |
| Bankomatların sayı, o cümlədən: | 2 | 5 | 8 | 9 | 9 |
| - Bakı şəhərində | 1 | 3 | 6 | 7 | 7 |
| - regionlarda | 1 | 2 | 2 | 2 | 2 |
| POS-terminalların sayı, o cümlədən: | 1 | 4 | 52 | 73 | 73 |
| - Bakı şəhərində | 1 | 4 | 46 | 67 | 67 |
| - regionlarda | - | - | 6 | 6 | 6 |
| Törəmə qurumlarımız | - | 1 | 1 | 1 | 1 |
| Nümayəndəliklər | 8 | 8 | 8 | 8 | 8 |

### Səhmdarlarımız

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| Səhmdarların ümumi sayı, o cümlədən: | 24 | 28 | 28 | 26 | 25 |
| - hüquqi şəxslər | 6 | 6 | 6 | 6 | 5 |
| - fiziki şəxslər | 18 | 22 | 22 | 20 | 20 |
| - bankın işçiləri | 8 | 6 | 7 | 6 | 5 |
| Səhmdarların nizamnamə kapitalında payı (%) o cümlədən: | | | | | |
| - hüquqi şəxslər | 29,67 | 29,67 | 27,77 | 27,14 | 21,8 |
| - fiziki şəxslər | 50,37 | 57,16 | 58,43 | 53,32 | 54,08 |
| - bankın işçiləri | 19,96 | 13,17 | 13,8 | 19,51 | 24,12 |

### İşçilərimiz

| Göstəricilər | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|
| İşçilərimizin ümumi sayı, o cümlədən: | 120 | 121 | 150 | 197 | 205 |
| - baş ofis | 36 | 38 | 49 | 71 | 76 |
| - filial və nümayəndəliklər | 58 | 73 | 80 | 94 | 103 |
| - mübadilə şöbələri | 26 | 10 | 21 | 32 | 26 |



**Beynəlxalq Auditorlarımız:**
«PriceWaterHouseCoopers» və «Deloitte & Touche»

**2009-cu il üzrə Əlamətdar Hadisələr:**

- Bank, Alman-Azərbaycan İqtisadi Birliyinə (DAWF) üzv seçilmişdir.
- Bank, ABTM (Azərbaycan Bank Tədris Mərkəzi) ilə birgə «İnstitutsional İnkişaf» layihəsini davam etdirmişdir;
- Bank, WBC/OPIC (WorldBusinessCapital & Overseas Private Investment Corporation) ilə KOS maliyyələşdirilməsi istiqamətində $7,5 mln məbləğində 10 illik kredit sazişi imzalamışdır.
- Bank, «Texniki Dəstək» layihəsi üzrə ABŞ-ın FSVC (Maliyyə Xidmətləri üzrə Könüllülər Korpusu) ilə 5 illik treninq, məsləhət sazişi imzalamışdır;
- Bank, Beynəlxalq Maliyyə Korporasiyasının (IFC) «Korporativ İdarəetmə» Layihəsi üzrə 2-ci fazada müvəkkil bank seçilmişdir.
- Bank, Kənd Təsərrüfatları Kreditləri üzrə Avrasiya Assosiasiyasına (EURACA) üzv seçilmişdir.
- Bank, yeni «Sirlər Xəzinəsi» əmanət kampaniyasına start vermişdir.
- Bank, «Allure» və «Zolotaya Korona» sürətli pul köçürmə sisteminə qoşulması işini başa çatdırmışdır.
- Bank, ŞəkərBank, İş Bankası Türkiyə və CommerzBank AG Almaniyada müxbir hesablar açmışdır;
- Bank, 2009-cu maliyyə ilinin müstəqil auditor hesabatının hazırlanması üzrə PWC (PriceWaterHouseCoopers) ilə saziş imzalamışdır.

# Makroiqtisadiyyat



2009-cu il dünya tarixinə maliyyə və iqtisadi böhran ili kimi düşsə də, Azərbaycan iqtisadiyyatının sosial-iqtisadi həyatında son illər müşahidə olunan artım dinamikası, 2009-cu ildə də qorunub saxlanılmışdır. Hesabat ili ərzində 2009-cu ildə Azərbaycanda ümumi daxili məhsulun (ÜDM) real artımı 2008-ci illə müqayisədə 9.3% təşkil edərək, cari qiymətlərlə 34.6 mlrd. manata çatmışdır. Əhalinin hər nəfərinə düşən ÜDM-un real həcmi isə 2008-ci illə müqayisədə 7.9% artaraq cari qiymətlərlə 3917.3 manat (4874.1 ABŞ dolları) təşkil etmişdir. Hesabat ilində neft-qaz sektorunda real artım 14.3%, qeyri-neft sektorunda isə 3.2% olmuşdur. 2009-cu ildə sənaye sektorunda real artım tempi 12.8%, nəqliyyatda 9.3%, rabitədə 13.1%, ticarətdə 9.9% olmuşdur. Əvvəlki illərdə olduğu kimi, ötən il də kənd təsərrüfatına xüsusi diqqətin yetirilməsi və həyata keçirilən məqsədyönlü tədbirlər (fermerlərə subsidiyaların, güzəştli şərtlərlə toxum və texnikanın, yanacağın verilməsi və s.) nəticəsində kənd təsərrüfatının real artım tempi 2008-ci illə müqayisədə yüksələrək 3.5% təşkil etmişdir.

Ötən hesabat ilində də investisiya siyasətinin əsas prioritet istiqamətləri infrastrukturun inkişafı, investisiyanın qeyri-neft sektorunun və regionların inkişafına yönəldilməsinin stimullaşdırılması, regionlar arasında investisiyaların bölgüsünün optimallaşdırılması, ölkədə investisiya fəaliyyətinin sosial istiqamətinin gücləndirilməsi təşkil etmişdir.

Hesabat ilində iqtisadi artımın qorunması və dinamik inkişafın təmin edilməsi istiqamətində bir sıra əhəmiyyətli islahatların tətbiq olunması artıq öz müsbət tövhəsini vermişdir. Tətbiq olunan islahatlar sırasına aşağıdakıları daxil etmək olar:

1 Bankların, sığorta və təkrarsığorta şirkətlərinin mənfəətinin nizamnamə kapitalının artırılmasına yönəldilmiş hissəsinin 2009-cu il yanvarın 1-dən 3 il müddətində mənfəət vergisindən azad edilməsi.
2 Banklar və digər kredit təşkilatları tərəfindən fiziki şəxslərin əmanətləri üzrə ödənilən faizlər 2010-cu il yanvarın 1-dən daha 3 il müddətinə gəlir vergisindən azad edilməsi.
3 Mərkəzi Bank tərəfindən banklara məcburi ehtiyat normasının 10%-dən 0,5%-dək salınması və xarici öhdəliklər üzrə ehtiyat normasının ləğv edilməsi.
4 Qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddinin 15% müəyyən edilməsi və bankda sığortalanmış əmanət üzrə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilməsi
5 Azərbaycan İpoteka Fondu tərəfindən təmin edilmiş istiqrazların yerləşdirilməsinə başlanılması və ipoteka kreditlərinin verilməsində fasiləsizliyin təmin edilməsi
6 Sahibkarlığa Kömək Milli Fondu vəsaitləri hesabına müvəkkil kredit təşkilatlarının maliyyələşdirdiyi investisiya layihələri üzrə illik faiz dərəcəsinin 7%-dən 6%-dək endirilməsi
7 Fərdi sahibkarlara tətbiq edilən gəlir vergisi 35 faizdən 20, müəssisələrin mənfəət vergisi 22%-dən 20%-dək endirilməsi
8 Fiziki şəxslərdən tutulan gəlir vergisinin yuxarı həddi 35%-dən 30%-dək endirilməsi.
9 Sadələşdirilmiş vergi ödəyicisi hüququ əldə etmək məqsədləri üçün hüquqi şəxslərin vergi tutulan əməliyyatlarının illik həcminin 90 min manatdan 150 min manatadək artırılması.
10 ƏDV və aksizlər üzrə elektron vergi hesab-fakturalarının tətbiqinə başlanılması.
11 Gömrük sistemində «vahid pəncərə» sisteminin tətbiq edilməsi

**Ötən ilə nisbətən real artım tempi, %**








**Neft və qeyri-neft sahələri üzrə investisiya bölgüsü**




**2009-cu ildə əsas kapitala yönəldilmiş investisiyaların mənbələri**




2009-cu ildə iqtisadiyyatın və sosial sahələrin inkişafına bütün maliyyə mənbələri hesabına 7.4 mlrd. manat əsas kapitala investisiya yönəldilmişdir. Bu vəsaitin 27%-i neft sektorunun, 73%-i isə qeyri-neft sektorunun inkişafına yönəldilmişdir. Əsas kapitala yatırılmış vəsaitin 79.9%-ni daxili investisiyalar, 20.1%-ni isə xarici investisiyalar təşkil etmişdir.

2009-cu ildə əhalinin gəlirləri 8% artaraq, 22.4 mlrd. manat, onun adambaşına düşən həcmi isə 2537.2 manat təşkil etmişdir. Bu əvvəlki illə müqayisədə 6.7% çoxdur. 2009-cu ildə orta aylıq əmək haqqı 2008-ci illə müqayisədə 8.6% artaraq, 298 manata çatmışdır.

2009-cu ildə orta illik inflyasiya 1.5% (2008-ci ildə 20.8%) təşkil etmişdir

2009-cu ildə xarici ticarət dövriyyəsi 20.8 mlrd. ABŞ dolları, o cümlədən ixrac 14.7 mlrd. ABŞ dolları, idxal 6.1 mlrd. ABŞ dolları olmuş, 8.6 mlrd. ABŞ dolları həcmində müsbət ticarət saldosu yaranmışdır.

2009-cu ilin yekununa görə ölkənin strateji valyuta ehtiyatları 20 mlrd. ABŞ dollarından çox olmuşdur.

**Orta illik inflasiya**




**Strateji valyuta ehtiyatları, mln ABŞ dolları**



# Bank Sistemi



2009-cu hesabat ili, ümumən dünya iqtisadiyyatındakı maliyyə böhranının geniş diapazonda dalğalanması kimi yadda qaldı. Bir çox ölkələrdə bu dalğalanmanın mənfi fəsadları ümumdünya tarixində maliyyə sistemindəki durğunluq mərhələsini şərtləndirsə də, Azərbaycan bank sistemindəki müsbət meyllər 2009-cu il üzrə də davam etmişdir.

Hesabat ilində bank sisteminin davamlı inkişafına əsas səbəb, Azərbaycan iqtisadiyyatında real sektorun maliyyə sektoru ilə qarşılıqlı davamlı inkişaf çərçivəsində qovuşmasıdır. Davamlı iqtisadi inkişaf, eyni zamanda ölkənin böyük iqtisadi potensialı, ilbəil artan iqtisadi imkanlar və bank sisteminin ilbəil beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi nəticəsində bank sisteminin sürətli inkişafını təmin edən amillər kimi də arqumentləşdirilir.

2009-cu ildə respublikada 46 bank fəaliyyət göstərmişdir ki, bunlardan da 45 tam özəl, 1-i isə dövlət iştiraklı bankdır. Hesabat ilində bank sistemində fəaliyyət göstərən bankların tərkibində 23 bank xarici kapitallı bank kimi qeydiyyata alınmışdır ki, bunlardan da 7 bank üzrə xarici kapital nizamnamə kapitalının 50%-dən çox hissəsini, 14 bankda isə xarici kapital nizamnamə kapitalının 50%-ə qədər hissəsini təşkil etmişdir. Xarici bankların filial kimi fəaliyyət göstərən 2 bankı mövcuddur. Hesabat ilində həmçinin xarici bankların ölkəmizdəki nümayəndəliklərinin sayı 4 olmuşdur.

Ölkə bank sisteminin dinamik templə inkişaf tendensiyasının pozitiv nəticəsi olaraq, yerli bankların 2009-cu hesabat ilində xarici ölkələrdə fəaliyyət göstərən strukturlarının tərkibində 2 törəmə bank, 1 filial və 6 nümayəndəlik daxil olmuşdur.

Ölkə banklarının 2009-cu ildə satış şəbəkəsinin genişləndirilməsi ilə bağlı qeyd etməliyik ki, bu dövrdə banklar ciddi fəallıq nümayiş etdirərək 59 yeni filial və 10 şöbə açılışını reallaşdırmışlar.

Hal-hazırda banklar üzrə 626 filial fəaliyyət göstərir ki, bunun da tərkibində 38 filial dövlət banklarına, 588 filial isə özəl banklara məxsusdur.

Bank sisteminin aktivləri, mlrd AZN




Bank sisteminin kredit portfeli, mlrd AZN








Bank sistemi aktivlərinin strukturu, (%)




Bank sistemi passivlərinin strukturu, (%)




Hesabat ilinin sonuna Azərbaycan banklarının ümumi aktivləri 2008-ci illə müqayisədə 13,5% artaraq 11,7 mlrd manat təşkil etmişdir.

Hesabat ili ərzində bank sektorunun aktivlərinin tərkibində iqtisadiyyata kredit qoyuluşları xüsusi çəkiyə malik olmaqla 8,4 mlrd manat təşkil etmişdir ki, bu da 2008-ci illə müqayisədə 17,3% artım deməkdir. Xüsusilə son illər ölkə bankları rəqabət şərtlərini nəzərə alaraq, daim artmaqda olan uzunmüddətli kredit tələblərinin qarşılanmasına daha çox önəm verirlər ki, bu da ölkə üzrə iqtisadi inkişafın davamlı olmasında və təsərrüfat subyektlərinin strateji iqtisadi planlaşmalarında mühüm əhəmiyyət kəsb edir. 2009-cu hesabat ili üzrə kredit qoyuluşlarının tərkibində uzunmüddətli kreditlərin həcmi, ümumi kredit qoyuluşlarının 71,9%-ni və ya 6 mlrd manatını təşkil etmişdir ki, bunların da 56,7%-i milli valyutada, 43,3%-i isə xarici valyutada yerləşdirilmişdir. Hesabat dövrü üzrə vaxtı keçmiş kreditlərin cəmi kredit qoyuluşlarına nisbəti isə 3,6% təşkil etmişdir.

2009-cu hesabat ili üzrə iqtisadiyyata kredit qoyuluşlarının kredit təşkilatları üzrə strukturuna baxsaq məcmu kreditləşmənin 3,9 mlrd manatının və ya 46,5%-nin dövlət payı olan bank tərəfindən, 4,3 mlrd manatının və ya 51,4%-nin özəl banklar, 177 mln manatının və ya 2,1%-nin isə bank olmayan kredit təşkilatları tərəfindən maliyyələşdirildiyini görə bilərik.

Hesabat ilində kredit qoyuluşlarının sahələr üzrə strukturu belə olmuşdur: Ticarət və xidmət – 1,8 mlrd manat və ya 21,8%, Energetika 1,5 mlrd manat və ya 18,1%, Kənd təsərrüfatı və emal 0,4 mlrd manat və ya 4,7%, İnşaat və Əmlak 0,6 mlrd manat və ya 6,9%, Sənaye və istehsal 0,5 mlrd manat və ya 6,4%, Nəqliyyat və rabitə 0,5 mlrd manat və ya 6,2%, Ev təsərrüfatları 2,3 mlrd manat və ya 27,7%, digər sahələr isə 8,2% təşkil etmişdir.

Hesabat ilinin ümumdünya maliyyə böhranı ilinə təsadüf etməsi kredit əməliyyatlarının struktur tərkibində maraqlı tendensiya ilə müşahidə olunmuşdur. Belə ki, əvvəlki illərə nisbətən Sənədli Əməliyyatlar üzrə kredit portfelinin həcmi nəzərəçarpacaq dərəcədə artmışdır. 2008-ci illə müqayisədə 2009-cu ildə Akkreditivlər üzrə portfel 284,5 mln manat və ya ümümi kredit qoyuluşunun 3,38%-ni (2008-ci ildə 0,6%), Zəmanət portfeli 18,52 mln manat və ya 0,22%, Faktorinq əməliyyatları üzrə 19,77 mln manat və ya 0,24% təşkil etmişdir.

2009-cu hesabat ilinin sonuna kreditlər üzrə orta illik faiz dərəcəsi yerli valyutada 15,92%, xarici valyutada isə 17,19% olmuşdur, yerləşdirilmiş banklararası kreditlər üzrə orta illik faiz dərəcəsi isə yerli valyutada 15,58%, xarici valyutada isə 8,7% olmuşdur.

2009-cu hesabat ilinin sonuna depozit və əmanət cəlbi üzrə orta illik faiz dərəcəsi yerli valyutada 11,72%, xarici valyutada isə 10,71% olmuşdur.

# 2009-cu ildə Bankın Əsas Maliyyə Göstəriciləri

«TuranBank» ASC Azərbaycanın bank sistemində proqressiv inkişafı ilə seçilən banklardan biri kimi hesabat ilində də öz maliyyə göstəricilərində yüksək nəticələr əldə etmişdir. Yola saldığımız 2009-cu il də bu əsnada istisna təşkil etməyib. Bankın yüksək inkişaf sürəti bütün maliyyə göstəricilərində öz əksini tapmışdır. Bank təklif etdiyi bütün növ bank xidmətlərində keyfiyyət amilinə xüsusi önəm verərək bu sahədə Azərbaycan Respublikası Mərkəzi Bankının və Beynəlxalq Maliyyə Hesabatları Standartlarının tələblərini əsas götürür.

## AKTİVLƏR

Bankın sürətli inkişafını əks etdirən mühüm göstəricilərdən biri kimi aktivləri qeyd etmək olar. Bankın ümumi aktivləri 2009-cu ildə 28.3% artaraq 106.1 mln manat təşkil etmişdir.

## AKTİVLƏRİN STRUKTURU

2009-cu ilin yekununa əsasən bankın aktivlərinin 72.1%-ni kredit portfeli təşkil edir. Bunun da ən əsas səbəbi kimi, kredit qoyuluşlarının daha gəlirli olması və eyni zamanda müştərilərin kredit tələblərinin çox olmasıdır.

## PASSİVLƏR

Bankın öhdəliklər bölməsinin ən mühüm tərkib hissəsini banklar və digər kredit təşkilatlarından cəlb edilən vəsaitlər, eyni zamanda depozit portfeli təşkil edir. Ümumilikdə isə hesabat dövrü ərzində bankın öhdəlikləri 85.2 mln manat olmuşdur ki, bu da keçən ilin müvafiq göstəricisindən 35.9% yüksək göstəricidir.

## PASSİVLƏRİN STRUKTURU

Bankın hesabat ili ərzində resurs bazasının möhkəmləndirməsi və diversifikasiyasını aparması nəticəsində bank daha ucuz hesab edilən yerli və xarici maliyyə-kredit qurumlarından resurs cəlb etmişdir. Hesabat ilinin sonuna 40.1 mln manat vəsait banklar və maliyyə təşkilatlarından cəlb edilmişdir. Öhdəliklər bölməsinin digər əhəmiyyətli hissəsinə hüquqi və fiziki şəxslərdən cəlb edilən vəsaitlər daxildir və müvafiq dövrə bank 44.8 mln manat vəsait cəlb etmişdir.

## KAPİTAL

2009-ci ilin sonuna bankın məcmu kapitalı 20.9 mln manat olmuşdur. Hesabat ilində bank səhmdar kapitalının artırılması ilə bağlı səhmlərinin emissiyasını həyata keçirmiş və bununla 2009-ci ilin sonuna səhmdar kapitalın həcmini 17.0 mln manata çatdırmışdır.

## KAPİTALIN STRUKTURU

Yuxarıda qeyd etdiyimiz kimi, bankın məcmu kapitalının 17.0 mln manatını ödənilmiş səhmdar kapitalı, 2.8 mln manatını bölüşdürülməmiş mənfəət və 1.1 mln manatını isə binaların yenidən qiymətləndirilməsi üzrə yaranan ehtiyat təşkil etmişdir.

Bankın ümumi aktivləri, mln AZN




Məcmu kapitalın artım dinamikası, mln AZN






TuranBank
ANNUAL REPORT 2009
www.turanbank.az

2009-cu ildə aktivlərin strukturu, (%)




2009-cu ildə passivlərin strukturu, (%)




2009-cu ildə məcmu kapitalın strukturu, (%)




## MƏNFƏƏT

2009-cu ilin sonuna bankın gəlirləri 12.06 mln manat, xərcləri isə mənfəət vergisi də daxil olmaqla 10.04 mln manat olmuşdur. Hesabat ilinin sonuna bankın 2.02 mln manat xalis mənfəəti olmuşdur.

Bankın ayrılıqda gəlirlər və xərclər maddələrini müqayisəli təhlil etdikdə görmək olar ki, təkcə hesabat ili üçün bankın gəlirləri keçən ilə nisbətən 3.3% artmışdır. 2009-cu il üzrə gəlirlərin tərkibində təbii olaraq 86.8% faiz gəlirlərinə (10.5 mln manat) məxsusdur. Bununla bərabər komissiya (1.18 mln manat) və dilinq gəlirləri (0.298 mln manat) də bank üçün əhəmiyyətli sayıla bilər.

Hesabat ili üzrə xərc maddələrini təhlil etdikdə görmək olar ki, əsas xərc maddələri faiz xərcləri (4.96 mln manat), inzibati və digər əməliyyat xərcləri (3.71 mln manat) və mənfəət vergisi xərcləri (0.13 mln manat) təşkil etmişdir.

2009-cu ildə gəlirlərin strukturu, mln AZN




2009-cu ildə xərclərin strukturu, mln AZN



# Kredit Siyasəti



Bankın düzgün kredit siyasətinin və apardığı fəal kredit əməliyyatlarının nəticəsi olaraq kredit portfeli ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,0 mln manat artaraq 76,5 mln manat təşkil etmişdir. Bankın kreditləşmə fəaliyyətinin əsas məqsədi minimal risklər çərçivəsində və likvidliyin zəruri səviyyədə saxlanması şərtilə pul vəsaitlərinin səmərəli yerləşdirilməsindən və maksimal gəlir əldə edilməsindən ibarətdir. Bu siyasətin nəticəsi olaraq kreditlərin məbləği və müddətləri, növləri, regionlar, bir müştəri və ya müştəri qrupları, habelə iqtisadiyyatın sahələri üzrə yerləşdirilməsi baxımından yaxşı tarazlaşdırılmaqla keyfiyyətli və diversifikasiyalı kredit portfeli formalaşdırılmışdır. «TuranBank» ASC 2009-cu ildə də fiziki və hüquqi şəxsləri müxtəlif növlü kreditlərlə təmin etmiş və bu istiqamətdə görülən işlərin nəticəsində həm biznes, həm də istehlak kreditlərinin çeşidi daha da artırılmışdır. Bankın kredit portfeli fiziki şəxslərə və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən korporativ müştərilərə verilmiş kreditlərdən ibarətdir.

Bankın kreditləşmə fəaliyyətində biznes kreditləşməsi, xüsusi ilə kiçik və orta sahibkarlıq subyektlərinin kreditləşməsi mühüm yer tutur və 2009 – cu ildə bu istiqamətdə nəzərəçarpacaq artım əldə olunmuşdur. Bank biznes kreditlərini həm özünün, həm də müxtəlif yerli və beynəlxalq maliyyə təşkilatlarından cəlb etdiyi vəsaitlər hesabına verir.

Ümumiyyətlə 2009-cu ildə kredit qoyuluşlarının sahə strukturu iqtisadiyyatın istehsal, emal, kənd təsərrüfatı, tikinti, ticarət və xidmət sahələrinə kreditlərin verilməsi ilə səciyyəvi olmuşdur.

Bankımız biznes kreditləşməsi sahəsində həm yerli, həm də beynəlxalq maliyyə təşkilatları ilə sıx əməkdaşlıq edir. 2007-ci ilədək «Dağ və yüksək dağlıq ərazilərin inkişaf etdirilməsi», «Kiçik və orta sahibkarlığın inkişafı», «Ipoteka kreditləşməsi» proqramlarında iştirak edən bankımız 2007-ci ildən Dünya Bankının və Kənd Təsərrüfatının Inkişafı üzrə Beynəlxalq Fondun «II kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi» və «Şimal-Şərq Inkişaf» layihələrinə, Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin vəsaitləri hesabına «Aqrar Sektorun Inkişafı» layihələrinə qoşulmuş, eyni zamanda Islam Inkişaf Korporasiyası tərəfindən bankımıza



TuranBank
ANNUAL REPORT 2009
www.turanbank.az

**Kredit Portfelinin illər üzrə artım dinamikası, (mln manatla)**




| Kreditin növü | Kredit qoyuluşu (min AZN) | Ehtiyyat (min AZN) | Xalis kredit qoyuluşu (min AZN) |
|---|---|---|---|
| Korporativ kreditlər | 43 938 | 1 316 | 42 622 |
| Sahibkar fiziki şəxslər | 17 372 | 482 | 16 890 |
| Fiziki şəxslər (istehlak kreditləri) | 11 761 | 652 | 11 109 |
| İpoteka kreditləri | 5 625 | 383 | 5 242 |
| Digər kreditlər | 823 | 180 | 643 |
| | **79 519** | **3 013** | **76 506** |

**Müştərilərə verilmiş kreditlərin iqtisadiyyatın sahələri üzrə bölgüsü, (min AZN)**




| S/N | İqtisadi sektor | Kredit məbləği (mln manatla) | Kredit portfelində xüsusi çəkisi |
|---|---|---|---|
| 1 | Ticarət və xidmət | 16,706 | 22% |
| 2 | İstehsal | 17,004 | 22% |
| 3 | Kənd təsərrüfatı | 15,971 | 21% |
| 4 | Tikinti | 9,757 | 13% |
| 5 | Daşınmaz əmlak alınması və ipoteka | 5,381 | 7% |
| 6 | İstehlak kreditləri | 11,045 | 14% |
| 7 | Digər kreditlər | 643 | 1% |
| | **CƏMİ:** | **76,506** | **100%** |

1,0 mln ABŞ dolları məbləğində kredit xətti açılmışdır.

«Dağ və Yüksək Dağlıq Ərazilərin İnkişaf Etdirilməsi» Proqramı çərçivəsində 2004-cü ildən ötən müddət ərzində Bank tərəfindən layihənin əhatə etdiyi rayonlarda (Quba, Qəbələ, Daşkəsən, Gədəbəy, Ismayıllı, Lerik) 93 sahibkarlıq subyektinin layihəsinin maliyyələşdirilməsinə 0,82 mln manat məbləğində kredit verilmişdir. 2009-cu ilin sonuna layihə üzrə kredit qoyuluşu 0,29 mln manat, əsas və faiz borcu üzrə yığım səviyyəsi isə 100% təşkil etmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, bankımız 2007-ci ilin iyul ayından Kənd Təsərrüfatının Inkişafı üzrə Beynəlxalq Fondun «Şimal-Şərq Inkişaf» layihəsinə qoşulmuşdur. Layihənin əsas məqsədi Azərbaycanın şimal-şərq rayonlarında – Abşeron, Xızı, Siyəzən və Dəvəçi rayonlarında kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq subyektlərinin maliyyələşdirilməsindən, kiçik və orta sahibkarlıq subyektlərinin məhsullarının emalı və satışının təşkili, bu qurumların təsərrüfat fəaliyyəti üçün mövsümü istehsal vasitələrinin alınması, emal avadanlıqları və nəqliyyat vasitəsi ilə təchiz edilməsindən ibarətdir. Bank tərəfindən bu layihə çərçivəsində 33 sahibkarlıq subyektinin layihəsinin

| S/N | Kredit portfelinin təminat növləri üzrə bölgüsü | Məbləğ (mln manatla) | Portfeldə xüsusi çəki |
|---|---|---|---|
| 1 | daşınmaz əmlakla təmin olunmuş kreditlər | 46 940 | 61% |
| 2 | zaminliklə təmin olunmuş kreditlər | 1 750 | 2% |
| 3 | qiymətli kağızlarla təmin olunmuş kreditlər | 2 105 | 3% |
| 4 | avadanlıqlarla təmin olunmuş kreditlər | 101 | 0,1% |
| 5 | qiymətli metallarla təmin olunmuş kreditlər | 2 094 | 3% |
| 6 | nəqliyyat vasitələri ilə təmin olunmuş kreditlər | 7 609 | 10% |
| 7 | depozitlə təmin olunmuş kreditlər | 3 869 | 5% |
| 8 | girovsuz kreditlər | 12 038 | 16% |
| YEKUN CƏMİ: | | 76 506 | 100% |

maliyyələşdilməsinə 0,63 mln manat məbləğində kredit verilmişdir və növbəti 2010-cu ildə bu layihə çərçivəsində kreditləşmənin daha da gücləndirilməsi nəzərdə tutulur.

Bankımız 2007-ci ildən Dünya Bankının «II kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi» layihəsi çərçivəsində agent bank kimi çıxış edir. Layihənin əsas məqsədi Azərbaycan respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsindən ibarətdir. Bank tərəfindən indiyədək bu layihə çərçivəsində 18 rayon üzrə 33 sahibkarlıq subyektinin layihəsinin maliyyələşdilməsinə 5 mln ABŞ dolları məbləğində kredit verilmişdir və növbəti 2010-cu ildə bu layihə çərçivəsində aktiv kreditləşmənin aparılması nəzərdə tutulur.

Bankımızın uzun müddətdir ki, (2002-ci ildən) sıx əməkdaşlıq etdiyi yerli maliyyə təşkilatlarından biri də Sahibkarlığa Kömək Milli Fondudur. Bu müddət ərzində «TuranBank» ASC tərəfindən bu fondun vəsaitləri hesabına 22 şəhər və rayon üzrə 254 sahibkarlıq subyektinin (o cümlədən mikrokreditlər – 157 halda) layihəsinin maliyyələşdirilməsinə 18,5 mln manat məbləğində (o cümlədən mikrokreditlər – 0,15 mln manat) güzəştli kredit verilmişdir. Maliyyələşdirilmiş layihələrin 80%-i regionların payına düşməklə kənd təsərrüfatı və istehsal yönümlü layihələrin xüsusi çəkisi 88% təşkil edir. 2009-cu ilin sonuna Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kredit qoyuluşu 15,4 mln manat, bankın kredit portfelində xüsusi çəkisi isə 20,1% təşkil etmişdir.

Bankımız həmçinin «Aqrar Sektorun İnkişafı» Layihəsi çərçivəsində Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyinin vəsaitləri hesabına kreditlərin verilməsində agent bank kimi çıxış etməyə başlamış ilk banklardan biri olmuşdur. «TuranBank» ASC tərəfindən bu layihə çərçivəsində 15 rayon üzrə heyvandarlıq, istehsal və emal sahəsində fəaliyyət göstərən 25 sahibkarlıq subyektinin layihəsinin maliyyələşdirilməsinə 2,9 mln manat məbləğində güzəştli kredit verilmişdir.

Bankımızın sıx əməkdaşlıq etdiyi beynəlxalq maliyyə təşkilatlarından biri də İslam İnkişaf Korporasiyasıdır. 2007-ci ildə İslam İnkişaf Korporasiyası tərəfindən bankımıza 1,0 mln ABŞ dolları məbləğində kredit xətti açılmışdır. Açılmış kredit xətti çərçivəsində «TuranBank» ASC tərəfindən nəşriyyat və istehsal sahəsində fəaliyyət göstərən 2 sahibkarlıq subyektinin layihəsinin maliyyələşdirilməsinə 1,0 mln ABŞ dolları məbləğində uzunmüddətli kredit verilmişdir.

Bankımızın kreditləşmə sahəsində önəm verdiyi sahələrdən biri də ipoteka kreditləşməsidir. İpoteka kreditləşməsi üzrə dövlət proqramına qoşularaq Azərbaycan İpoteka Fondunun vəsaitləri hesabına kreditlərin verilməsində agent bank kimi iştirak edən bankımız bu layihə üzrə 4,12 mln manat məbləğində kredit vermiş və 2009-cu ilin sonuna kredit qoyuluşu 3,9 mln manat təşkil edir.

| S/N | Göstəricinin adı | Məbləğ (mln manatla) | Portfeldə xüsusi çəki |
|---|---|---|---|
| 1 | İstifadə olunmamış kredit xətləri | 8,1 | 10,6% |
| 2 | Müddəti uzadılmış kreditlər | 5,6 | 7,3% |
| 3 | Banka aidiyyatı olan şəxslərə verilmiş kreditlər | 9,9 | 12,9% |



TuranBank ANNUAL REPORT 2009
www.turanbank.az

**Kredit portfelinin borcalanlar üzrə bölgüsü, %**




**Kredit portfelinin təminat növləri üzrə bölgüsü, %**




Kredit əməliyyatları üzrə faiz gəlirləri bank üzrə ümumi gəlirlərin tərkibində əhəmiyyətli paya malik olmaqla ildən – ilə dinamik artım tempi istiqamətində artmaqdadır.

2009-cu ildə kreditlər üzrə faiz gəlirləri 2008-ci illə müqayisədə 0,4 mln manat artaraq 10,5 mln manat olmuşdur ki, bu da bank üzrə ümumi gəlirlərin 86.7%-ni təşkil etmişdir.

Bankda kreditlər üzrə ehtimal olunan itkilər üçün yaradılan ehtiyatlar 2008-ci illə müqayisədə 1.0 mln manat artaraq 3,0 mln manat təşkil etmişdir.

Kredit portfelinin müddətlər üzrə bölgüsü aşağıdakı kimi olmuşdur :

**1 ayadək** – 5,8 mln manat və ya portfelin 7,6%-i

**1 aydan 6 ayadək** – 21,0 mln manat və ya portfelin 27,5%-i

**6 aydan 1 ilədək** – 12,7 mln manat və ya portfelin 16,6%-i

**1 ildən yuxarı** – 37,0 mln manat və ya portfelin 48,3%-i

Kredit portfelinin təminatında ayrı – ayrı əmlak növləri üzrə cəmləşmə meyllərinin və bununla da hər hansı sektordan asılılığın qarşısının alınması üçün mütəmadi olaraq müvafiq diversifikasiya aparılır.

Göründüyü kimi bankın kreditləşmə fəaliyyəti sahəsində mövqeləri ildən-ilə güclənir və strateji plana, habelə qarşıya qoyulan hədəflərə uyğun olaraq bu fəaliyyətin növbəti illərdə daha da aktivləşdirilməsi nəzərdə tutulur.



# Mikro-maliyyələşdirmə

Hesabat ilində universal bank modulu əsasında fəaliyyətini davam etdirən TuranBank, bazar seqmentləşdirilməsində mikromaliyyə sferasına xüsusi önəm verir.

Bankda əsas fəaliyyət istiqaməti sayılan kreditləşdirmə, artıq hesabat ilindən başlayaraq tərkibinə mikromaliyyə sahəsini də daxil etmişdir. Bu sahənin inkişafı nöqteyi-nəzərindən bank, hesabat ilində «mikrokredit» məhsulu yaratmışdır ki, bu da beynəlxalq təcrübəyə əsaslanaraq mikrokreditlərə 30 000 manatadək olan kreditlər aid edilir.

Hesabat ilində ən yadda qalan hadisələrdən biri də «TuranBank»ın Beynəlxalq Mikromaliyyə konfranslarında aktiv iştirakıdır. Bu konfranslardan əlamətdar sayılanları bankın nümayəndə heyətinin Serbiyanın paytaxtı olan Belqrad şəhərində keçirilən 12-ci Mikromaliyyələşdirmə konfransında iştirak etməsidir. Konfransda bir sıra beynəlxalq və yerli mikromaliyyələşdirmə institutları ilə məhsuldar danışıqlar aparılmış və əməkdaşlıq istiqamətində ilkin razılıqlar əldə olunmuşdur.

Mikromaliyyələşdirmə biznesini daha da genişləndirmək məqsədilə yeni «Mikromaliyyələşdirmə ixtisaslı» Yasamal filialı yaradılmışdır ki, bu da gələcəkdə əhalinin azgəlirli qrupuna daha münasib və sərfəli şərtlərlə maliyyələşmə imkanları verilməsinə imkan yaratmışdır.

| Sahələr | Verilmiş Kredit məbləği (AZN) | | Fərq |
|---|---|---|---|
| | 2008 | 2009 | % |
| Kənd təsərrüfatı | 4 463 980 | 6 762 227 | 33,99 |
| İstehsal | 595 500 | 893 124 | 33,32 |
| Ticarət | 3 253 487 | 5 291 725 | 38,52 |
| Xidmət | 743 500 | 1 403 481 | 47,02 |
| Digər | 1 523 620 | 1 080 182 | -41,05 |
| Cəmi | 10 580 087 | 15 430 740 | 31,43 |



# Plastik kartlar

TuranBank kart biznesi sahəsinə böyük önəm verməkdədir. Nağdsız hesablaşmaların inkişaf etdirilməsinin ümumiqtisadi əhəmiyyəti bankın bu sahədə fəaliyyətində əsas stimulverici amillərindən biridir.

2009-cu il TuranBank üçün bank kart biznesi sahəsində uğurlu oldu. Bankımız çip kartların istehsalı ilə bağlı «MasterCard International» beynəlxalq ödəniş sistemində sertifikasiyanı keçdi, müştərilər üçün EURO kart hesabının açılması mümkün oldu, «ATM SMS Notification enrollment («SMS məlumatlandırma») xidməti müştərilərin istifadəsinə verildi.

TuranBank 2003-cü ildən plastik kart məhsullarını bazarda reallaşdırmağa başlamış və hər il öz kart məhsullarını genişləndirmək istiqamətində müsbət tendensiya ilə fəaliyyət göstərir. 2009-cu ildə kart istehsalı 2008-ci illə müqayisədə 74% artmış, 9 ATM üzrə ümumi dövriyyə 6 669 551 manat, kart xidməti üçün bank komisyonu 112 204 manat təşkil etmişdir.

Bankomat şəbəkəsi Bakı, Gəncə, Sumqayıt şəhərlərini əhatə edir. 2010-cu ildə Tovuz, Ağstafa və Zaqatala rayonlarında mövcud olan filiallara bankomat yerləşdirilməsi nəzərdə tutulur. «MasterCard International» beynəlxalq ödəniş sistenminin üzvü olan bankımız əhaliyə CirrusMaestro, MC Standard, MC Gold bank kartlarını təqdim edir.

Hesabat ilində plastik kartlar vasitəsilə kommunal xidmətlərin, mobil telefon, internet provayder xidmətlərinin ödənilməsi, onlayn alış-veriş və «Card to Card» əməliyyatları intensiv şəkildə artmışdır. TuranBank ekvarinq şəbəkəsini də inkişaf etdirir. Hazırda 73 POS-terminal istifadəyə verilmişdir ki, bu da ticarət-xidmət obyektlərində, iri mağazalarda, iaşə obyektlərində kartlardan istifadə üçün şərait yaratmışdır.

Növbəti hesabat ilində məqsədimiz plastik kartlarla bağlı bir sıra layihələrin həyata keçirilməsi, «PayPoint» sisteminin quraşdırılması, VISA International Beynəlxalq ödəniş sisteminə üzv olmaqdır.






# Xidmət Şəbəkəsi

Bankın sabit inkişafını şərtləndirən əsas amillərdən biri də xidmət şəbəkəsinin coğrafi genişliyidir. Hesabat ili ərzində bankın xidmət şəbəkəsi 11 filial, 8 nümayəndə və 21 mübadilə şöbəsindən ibarət olub.

Ümumiyyətlə xidmət şəbəkəsinin genişləndirilməsi «TuranBank»ın əsas prioritet kurslarından biridir. Xidmət şəbəkəsinin hərtərəfli inkişafı yalnız bölgələrdə təmsil olunmağı və bankın ərazi bölmələrinin sayının artırılması deyil, həm də mövcud strukturların səmərəliyinin artırılmasını nəzərdə tutur. Bu istiqamətdə TuranBank daim öz xidmət şəbəkəsinin potensialını artırır, fəaliyyətinin kəmiyyət və keyfiyyət parametrlərini daim yaxşılaşdırır. Məqsədimiz bankın öz xidmətlərini müştərilərə operativ və yüksək keyfiyyətlə çatdırmaq, müştərilərin tələblərinə istiqamətlənmək, xidmət növləri üçün yeni bazarların axtarılması, coğrafi regionun həm daxilində, həm də xaricində satış bazarlarının genişləndirilməsi üçün inkişaf etmiş daha geniş xidmət şəbəkəsinin qurulmasıdır.

Bankın xidmət şəbəkəsinə daxil olan filial, nümayəndə və valyuta mübadilə şöbələrinin yerləşmə coğrafiyası da özünəməxsusluğu ilə seçilir. Belə ki, filialların 6-sı Bakı şəhərində, 5-i isə Gəncə, Sumqayıt, Tovuz, Ağstafa və Zaqatala şəhərlərində yerləşir. Hesabat ilində Səhmdarların Ümumi Yığıncağında «Filialların və şöbələrin inkişaf strategiyası» təsdiq edilmiş, bütün filialların vahid korporativ standartlara uyğunlaşdırılması və maddi-texniki bazalarının gücləndirilməsi qərara alınmışdır. Standartlaşdırma prosesi 2009-cu ildə başlanılmış və 2010-cu il ərzində də davam etdiriləcəkdir. Bu proses nəticəsində standartlaşdırılmış filiallara Tovuz və Nur filiallarını aid etmək olar.

Paralel olaraq filialların idarəetmə proseslərində və satış mexanizmlərində, xüsusən də nəzarət sahəsində dəyişikliklər həyata keçirilir.

Ölkə rəhbərliyinin həyata keçirdiyi regionların sosial-iqtisadi inkişafı proqramına dəstək olaraq 2010-cu il ərzində Respublikanın şimal və cənub bölgələrində filialların açılması nəzərdə tutulur.

**Xidmət şəbəkəsini genişləndirməklə, Bank aşağıda sadalanan hədəflərə çatmağı planlaşdırır.**

- Regional müştəri bazasını genişləndirmək
- Müştəriyə yaxın olmaqla, ona operativ və keyfiyyətli xidmət təklif etmək
- Fəaliyyəti bölgələrlə bağlı olan korporativ müştərilərə kompleks xidmət təklif etmək imkanını artırmaq
- Bankın sərmayə baxımından cəlbediciliyini artırmaq
- Xidmətlərin mərkəzdən regionlara desentraliza-siyasını həyata keçirmək
- Regionların sosial-iqtisadi inkişaf proqramında iştrak etmək



**BAŞ OFİS**
AZ1073, İ.Qutqaşınlı küç., 85,
Bakı şəh., Azərbaycan
Tel: +994 (12) 497 25 11/92; 510 79 11/22
Faks: +994 (12) 497 25 77; 510 80 33
e-mail: office@turanbank.az
web: http://www.turanbank.az

**YASAMAL FİLİALI:**
AZ1005, Nizami küç., 53,
Bakı şəh., Azərbaycan
Tel: +994 (12) 596 06 38, 596 06 24
Faks: +994 (12) 596 26 41
e-mail: yasamalbranch@turanbank.az

**BİNƏQƏDİ FİLİALI:**
AZ1130, 3066-cı məh., İ.Naxçıvani küç., 11C,
Bakı şəh., Azərbaycan
Tel: +994 (12) 436 46 08
Faks: +994 (12) 436 46 09
e-mail: binagadibranch@turanbank.az

**NUR FİLİALI:**
AZ1118, Q.Qarayev pr., 61,
Bakı şəh., Azərbaycan
Tel: +994 (12) 520 10 71/72
Faks: +994 (12) 520 10 74
e-mail: nurbranch@turanbank.az

**BAKI FİLİALI:**
AZ1014, Mirzəağa Əliyev küç., 245A,
Bakı şəh., Azərbaycan,
Tel/Faks: +994 (12) 494 83 85
e-mail: bakubranch@turanbank.az

**NƏSİMİ FİLİALI:**
AZ1073, S.Dadaşov küç., 84/2,
Bakı şəh., Azərbaycan,
Tel/Faks: +994 (12) 494 83 85
e-mail: nasimibranch@turanbank.az

**SAHİL FİLİALI:**
AZ1100, Mətbuat pr., 31,
Bakı şəh., Azərbaycan
Tel: +994 (12) 439 85 02
Faks: +994 (12) 439 64 70
e-mail: sahilbranch@turanbank.az

**GƏNCƏ FİLİALI:**
AZ2000, Cavadxan küç., 24,
Gəncə şəh., Azərbaycan
Tel: +994 (22) 55 43 85, 56 49 75
+994 (12) 418 90 76
Faks: +994 (22) 56 43 86
e-mail: ganjabranch@turanbank.az

**SUMQAYIT FİLİALI:**
AZ5004, 1-ci mkr., N. Nərimanov küç., 11,
Sumqayıt şəh., Azərbaycan,
Tel: +994 (1864) 2 22 29
Faks: +994 (12) 448 35 36
e-mail: sumgayitbranch@turanbank.az

**TOVUZ FİLİALI:**
AZ6000, Sabir küç., 11,
Tovuz şəh., Azərbaycan,
Tel/Faks: +994 (231) 5 62 11
+994 (12) 417 62 11
e-mail: tovuzbranch@turanbank.az

**AĞSTAFA FİLİALI:**
AZ0500, H. Əliyev küç., 11A,
Ağstafa şəh., Azərbaycan
Tel: +994 (244) 5 30 02, 5 35 95
+994 (12) 418 36 12
Faks: +994 (244) 5 30 02
e-mail: akhstafabranch@turanbank.az

**ZAQATALA FİLİALI:**
AZ6200, H. Əliyev pr.100,
Zaqatala şəh., Azərbaycan
Tel/Faks: +994 (174) 5 57 65
e-mail: zagatalabranch@turanbank.az





# İnstitutsional İnkişaf

Bank biznesinin uğur təməli institutsional inkişaf olduğundan, TuranBank bu istiqamətinin diqqət mərkəzində saxlamağı özünün əsas hədəflərinin sırasına daxil etmişdir. Bankın «2008-2011»-ci illər üzrə qəbul etdiyi strategiya, 2008-2009-cu illəri bankda «institutsional inkişaf» illəri kimi əks etdirmiş və bu sahədə TuranBank, bank sistemində təcrübəli sayılan bank tədris qurumlarından biri, Azərbaycan Bank Tədris Mərkəzi (ABTM) ilə bankda instutsional inkişafa dəstək yönümündə qarşılıqlı müqavilə imzalanmışdır. «ABTM»in ixtisaslı mütəxəssisləri «institutsional inkişaf» sahəsində bankın Əməliyyat Planları üzrə müəyyənləşdirilmiş layihələrin, modul/sub-modulların və tədbirlərin reallaşdırılmasında bankın orta və yüksək menecmenti ilə sıx əməkdaşlıq aparmışlar. Bank, «institutsional inkişaf» istiqamətini daim prioritet sahə kimi saxlamaq məqsədilə, bankın strategiyasına müvafiq adekvat təşkilati-strukturun tərkibində Müşahidə Şurasının vertikal tabeçiliyində struktur bölmə rəhbərləri və İdarə Heyətindən ibarət Strateji Plan Qrupu (SPQ) yaratmışdır. SPQ, əsasən nəzərdə tutulmuş illik hədəflərin icrası ilə bağlı aylıq, rüblük və illik mütəmadi toplantılar keçirir və strateji vəzifələrin icra statusu barədə müzakirələr apararaq müvafiq qərarlar qəbul edir.

2008-ci il «institutsional inkişaf» illərinin ilk ili kimi bankda bir neçə fundamental islahatların keçirilməsi ilə yadda qaldısa, 2009-cu il, həm 2008-ci il üzrə nəzərdə tutulan layihələrin davamı həm də davamlı biznes kursunun inkişafına dəstək blokuna daxil olan digər layihələrin reallaşdırılması baxımından əlamətdar il oldu. 2009-cu il üzrə Əməliyyat Planlarının tərkibinə 9 layihə – Təşkilati Struktur və Proseslərin təkmilləşdirilməsi, İnsan Resurslarının İdarə Edilməsi işinin yenidən qurulması, Risklərin İdarəedilməsi sisteminin təkmilləşdirilməsi, Maliyyə Menecmenti işinin təkmilləşdirilməsi, İnformasiya Texnologiyaları sahəsinin təkmilləşdirilməsi, Marketinq və Satış işinin təkmilləşdirilməsi, Xarici İnvestorun Cəlb olunması, Çirkli Pulların Yuyulmasına Qarşı bankdaxili tədbirlərin və Korporativ İdarəetmə sisteminin təkmilləşdirilməsi daxil edilmişdir. Həmçinin 2009-cu il üzrə Əməliyyat Planlarının tərkibinə 32 modul, 2 sub-modul və 171 görüləcək tədbir daxil edilmişdir.



Əməliyyat Planları üzrə qeyd olunan işlərin görülməsi bir sıra vacib istiqamətlərinin təkmilləşdirilməsini reallaşdırdı:

1 Qəbul olunmuş təşkilati strukturun adekvat kadrlarla tamamlanma işinin davam etdirilməsi

2 Bankdaxili hüquqi-normativ bazanın əsaslı təkmilləşdirilməsi – proseslər üzrə siyasət, qayda və təlimatların hazırlanması başa çatdırılmışdır

3 Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsi, müxtəlif biznes bloklar üzrə optimal nəzarət mexanizmləri tətbiq edilmişdir

4 Məhsul və xidmətlər, eyni zamanda funksional fəaliyyətlər üzrə Bankdaxili təlimat kitabı yaradılmışdır
- 4.1 Plastik kartlarla əməliyyatlar üzrə qaydalar
- 4.2 Əmanətlərlə əməliyyatlar üzrə qaydalar
- 4.3 Bankdaxili proseslər üzrə qaydalar
- 4.4 Xəzinədarlıq fəaliyyəti üzrə qaydalar
- 4.5 Kargüzarlıq üzrə qaydalar
- 4.6 Satınalmalar üzrə qaydalar
- 4.7 Sənədli Əməliyyatlar üzrə qaydalar
- 4.8 Zəmanətlərlə əməliyyatlar üzrə qaydalar
- 4.9 Valyuta Əməliyyatları ilə iş üzrə qaydalar
- 4.10 Daxili Audit üzrə qaydalar
- 4.11 Hesablaşmalar üzrə qaydalar
- 4.12 Qiymətli kağızlarla iş üzrə qaydalar
- 4.13 Depozit seyflərinin icarəsi üzrə qaydalar
- 4.14 Büdcə üzrə qaydalar



5 İRİE sisteminin təkmilləşdirilməsi

6 Karyera İnkişafı sistemi qurulmuşdur

7 Biznes-etika məcəlləsi hazırlanaraq tətbiq edilmişdir

8 İşçilərin bilik və bacarıqlarının qiymətləndirilməsi istiqamətində Atestasiya keçirilmiş və ilk 10 uğur qazanan əməkdaşlar təltif edilmişlər

9 Bankın birbaşa rəhbər işçiləri liderlik bacarıqlarının təkmilləşdirilməsi ilə bağlı treninqlərdən keçirilmişlər

10 Bank işçiləri üzrə profayl təkmilləşdirilmişdir

11 Risklərin İdarəedilməsi Sisteminin qurulması işinin təkmilləşdirilməsi
- 11.1 Risklərin idarə edilməsi siyasəti
- 11.2 Risk Xəritəsinin hazırlanması
- 11.3 Fövqəladə Hallar Planının hazırlanması
- 11.4 Problemli kreditlərin idarə edilməsi haqqında daxili qaydalar
- 11.5 Kreditlər üzrə monitorinqlərin aparılması daxili qaydaları
- 11.6 Valyuta risklərinin idarə edilməsi qaydaları
- 11.7 Faiz risklərinin idarə edilməsi qaydaları
- 11.8 Likvidlik risklərinin idarə edilməsi qaydaları
- 11.9 Əməliyyat risklərinin idarə edilməsi qaydaları
- 11.10 Kredit risklərinin idarə edilməsi qaydaları

12 APİE sisteminin təkmilləşdirilməsi, APİK-in fəaliyyətinin aktivləşdirilməsi, limitlərin bölgüsü. Xəzinədarlıq fəaliyyətinin əsaslı aktivləşdirilməsi, likvidlik istiqaməti analitik məlumat bazasının yaradılması

13 Bankın kredit siyasətinin təkmilləşdirilməsi
- 13.1 Biznes kreditlərinin verilməsi qaydaları
- 13.2 Zəmanətlərin verilməsi qaydaları
- 13.3 Potensial borcalanlara həyat sığortasının tətbiqi proseduru
- 13.4 Girov götürüləcək daşınmaz əmlakın yanğından və digər risklərdən sığortalanması proseduru
- 13.5 Girov götürüləcək nəqliyyat vasitəsinin KASKO sığortalanması proseduru
- 13.6 Problemli kreditlərlə iş üzrə sistemli baza işinin təkmilləşdirilməsi

14 Maliyyə Menecmenti Sisteminin təkmilləşdirilməsi
- 14.1 Balansın tərtibi və bağlanma qaydaları
- 14.2 Arxiv işinin təşkili qaydaları
- 14.3 Ezamiyyət üzrə qaydalar
- 14.4 Maya Dəyərinin hazırlanması

15 Marketinq, satış və CRM sisteminin təkmilləşdirilməsi;
- 15.1 Marketinq Siyasətinin hazırlanması
- 15.2 Reklam Siyasətinin hazırlanması
- 15.3 Seqmentləşdirmə üzrə təlimatın hazırlanması
- 15.4 Yeni Məhsulyaratma Sistemi üzrə qaydalar
- 15.5 Müştəri reytinq sistemi haqqında qaydalar
- 15.6 Marketinq Planının qurulması sistemi
- 15.7 Müştəri profayl sisteminin qurulması

16 Çirkli Pulların Yuyulması və Terrorizmin Maliyyələşdirilməsinə qarşı sistemin təkmilləşdirilməsi;
- 16.1 Çirkli Pulların Yuyulması və Terrorizmin Maliyyələşdirilməsinin qarşısının alınması istiqamətində yeni təkmil daxili qaydaların hazırlanması
- 16.2 «Öz Müştərini Tanı» siyasətinin hazırlanması
- 16.3 Uyğunluq mütəxəssislərinin treninqlərdən keçirilməsi
- 16.4 ÇPY və TM qarşı bankdaxili deklarasiyanın qəbul olunması
- 16.5 PATRIOT ACT sertifikatının əldə edilməsi;

17 İT sisteminin təkmilləşdirilməsi;
- 17.1 Biznes Departamentlərinin İT üzrə təliminin təşkil olunması qaydaları
- 17.2 İT sistemlərindən istifadə səlahiyyətlərinin müəyyən olunması qaydaları
- 17.3 Əsas informasiya sistemlərinin işə salınması və dayandırılması qaydaları
- 17.4 Sistem və proqramlara xidmət qaydaları
- 17.5 İT üzrə yeni sistemlərin və dəyişikliklərin testləşdirilməsi və tətbiq olunması qaydaları.
- 17.6 Help-Desk sisteminin yenidən qurulması

2009-cu il üzrə sadalanan tədbirlərin həyata keçirilməsi böyük bir qismində bankın "institutsional inkişaf" üzrə əsaslı bazanın formalaşdırılması ilə yekunlaşdı. "İnstutsional inkişaf" layihəsinin 2010-cu ildə davamı əsasən Bankın biznes hədəflərinin dəstəklənməsinə istiqamətləndirilmişdir. Bununla əlaqədar 14 moduldan ibarət tədbirlər planı hazırlanmışdır.



# İslam Bankçılığı



Hələ 2008-ci ilin II-ci yarımilliyindən başlayan ümumdünya maliyyə böhranı, «islam bankçılığı»nın ənənəvi bankçılığa alternativ, dayanıqlı bir sistem olduğunu təsdiqlədi. Hazırda İslam bankçılığının orta illik 15% böyüməsini və qeyd olunan böhrana davamlılıq amilini nəzərə alsaq, artıq əksər ölkələrin «islam bankçılığı» modulunu tətbiq etmək istiqamətində fəaliyyətləri fəallaşmışdır.

Ümumi satış kanallarının genişləndirilməsini, eyni zamanda Azərbaycanın müsəlman ölkə olmasını, həmçinin əhalinin «İslam Bankçılığı» məhsul və xidmətlərindən məhdud və ya heç istifadə edə bilməməsi amilini nəzərə alaraq, «TuranBank», şəriət prinsipləri və mövcud bank qanunvericiliyi çərçivəsində «İslam Bankçılığı» pəncərəsini tətbiq etməyi hədəfləmişdir. Bu sahədə bankın ilkin təcrübəsi 2008-ci ildə ICD (Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası, İslam İnkişaf Bank Qrupu) ilə 1 illi güzəştli olmaqla Murabbaha (İslam Bankçılığı Aləti) məhsulu çərçivəsində Kiçik və Orta Sahibkarlığın inkişafına istiqamətləndirilmiş kredit müqaviləsidir. Bankın işçiləri, bu məhsulun tətbiqi üzrə ICD-nin müvafiq mütəxəssisləri tərəfindən Qazaxıstan və Bankın Baş Ofisində treninqlərdən keçmişdir.

«İslam Bankçılığı» pəncərəsinin tətbiqi üzrə ilkin işlərin görülməsi 2010-cu hesabat ilində planlaşdırılmışdır ki, bu da öz əksini həmin il üzrə Əməliyyat Planlarında tapacaqdır.

Ümumiyyətlə bankın ilkin tədbirlər planının hazırlanması, «İslam Bankçılığı» üzrə təlim-treninqlərdən keçməsi, uyğun məhsulların işlək mexanizmlərinin hazırlanması və tətbiqi kimi ümumi addımlar daxildir. Bank, öz əməkdaşlarının bu istiqamətdə təlim və treninqlərin keçməsi üçün bir sıra ixtisaslaşmış institutlarla əməkdaşlıq etməyi planlaşdırır. Bunlara IRTI (İslam Araşdırmaları və Treninq İnstitutu, İslam İnkişaf Bankı Qrupu), BIBF (Maliyyə və Bankçılıq üzrə Bəhreyn İnstitutu) və s. aiddir.

# Səhmdar Kapitalı

Səhmdar kapitalının illər üzrə artım dinamikası, (mln manatla)




2009-cu ilin sonuna «TuranBank»ın səhmdar kapitalı 17 mln manat təşkil etmişdir ki, bu da Mərkəzi Bankın bankların nizamnamə kapitalının minimumuna olan tələbdən 7 mln manat və ya 70% artıqdır. Səmimiyyət, etibarlılıq və şəffaflıq prinsipləri üzərində qurulan münasibətlər «TuranBank»ın mövcud səhmdarlarının bankın məhsuldar artımına olan inamını artırır ki, bu da 17 illik fəaliyyət tarixində bankın səhmdar kapitalının dinamik artımına, eyni zamanda hesabat ili ərzində səhmdar kapitalının səhmlərin əlavə emissiyası şəklində artırılmasına əyani sübutdur. Belə ki, 2008-ci ilin sonu ilə müqayisədə səhmdar kapitalının artımı 1 mln manat məbləğində Bakı Fond Birjasında səhmlərin əlavə emissiyası şəklində həyata keçirilmişdir.

2009-cu ilin sonuna bankın ümumi səhmlərinin sayı 17 000 ədəd olmaqla hər birinin nominalı 1000 manat məbləğində qiymətləndirilmişdir. Qəbul olunmuş strateji baxışın əsas məqamlarından biri də gələcək 2 il ərzində «TuranBank»a xarici kapitalın cəlb edilməsidir. Bu istiqamətdə bankın səhmdarları tərəfindən bankın səhmdar kapitalında iştirakının əsas meyarları işlənib hazırlanmış və təkliflər şəklində seçilmiş xarici maliyyə qurumlarına təqdim ediləcəkdir.

Hesabat ilində bankın səhmdarları 20 fiziki şəxs və 5 hüquqi şəxs olmaqla ümumilikdə 25 səhmdardan ibarətdir.

2009-cu ildə səhmdar kapitalının strukturu, (%)



# Kapital İnvestisiyaları

Ötən illərdə olduğu kimi, 2009-cu ildə də TuranBank özünün kapital investisiyaları istiqamətində iqtisadi fəaliyyət kursunu saxlamış və biznesin bu sahəsinin mənfəətli olmasını planlaşdıraraq, gələcək illərdə bu istiqamətdə balanslı kurs saxlamağı hədəfləmişdir.

Hesabat ili ərzində TuranBank-ın kapital investisiyaları aşağıdakı kimi olmuşdur:

**«Azər-TürkBank» ASC**
**«Başak İnam» Sığorta Şirkəti**
**«Milli Kart» MMC Prossesinq**
**«TuranLizinq» MMC**

**«Azər-Türk Bank» ASC:**

«Azər-Türk Bank» ASC 25 May 1995-ci ildə T.C. Ziraat Bankası və Azərbaycan Respublikası Səhmdar Kommersiya Aqrar-Sənaye Bankı tərəfindən təsis edilmiş və Azərbaycan Respublikası Milli Bankının 29 İyun 1995-ci il tarixli, 234 saylı lisenziyası ilə 11 İyul 1995-ci il tarixdə fəaliyyətə başlamışdır.

«Azər-Türk Bank» ASC-nin hesabat ilinin sonuna nizamnamə kapitalı 10 mln manat təşkil etmişdir. Bankın səhmdarları sırasına T.C. Ziraat Bankası A.Ş. (46% səhmlərə sahib), «Aqrarkredit» Bank olmayan Kredit Təşkilatı (46% səhmlərə sahib), Ziraat Bank International AG Frankfurt, Almaniya (4% səhmlərə sahib) və «TuranBank» ASC (4% səhmlərə sahib) daxildir.

**«Başak İnam» Sığorta Şirkəti:**

«Başak İnam» Birgə Sığorta Şirkəti 9 Avqust 1996-cı ildə Maliyyə Nazirliyinin müvafiq sığorta fəaliyyəti əsasında verdiyi lisenziya ilə fəaliyyətə başlamışdır.

«Başak İnam» Birgə Sığorta Şirkətinin hesabat ilinin sonuna nizamnamə kapitalı 1 mln manat təşkil etmişdir. Şirkətin səhmdarları sırasına Türkiyənin «Başak GroupAma» A.Ş., «TuranBank» ASC (15% səhmlərə sahib), qalan səhmlərin sahibləri isə «Azər-Türk Bank» ASC, «Aqrarkredit» Bank Olmayan Kredit Təşkilatı və fiziki şəxslərdir.

«Başak İnam» Birgə Sığorta Şirkəti, Azərbaycan sığorta bazarının liderləri sırasında ön yerlərdən birini tutur.

**«MilliKart» MMC Prossesinq Mərkəzi (AYİB):**

«MilliKart» MMC Prossesinq Mərkəzi Azərbaycan plastik kart bazarında Azərbaycan Beynəlxalq Bankı-nın törəmə qurumu olan «AzeriCard» MMC-yə alternativ bir Prossesinq Mərkəzi olaraq yaradılmış və əsas fəaliyyəti plastik kartlar vasitəsilə aparılan əməliyyatların dövriyyəsinin sürətlə artdığı bir şəraitdə, müasir Prossesinq Mərkəzi kimi bank kartlarının hazırlanması, dövriyyəyə buraxılması və onlar üzrə aparılan hesablaşmalarla əlaqədar xidmətlərin yerinə yetirilməsindən ibarətdir. Mərkəz, 1 İyun 2006-cı il tarixində 18 yerli bank tərəfindən – AtaBank, AzərdəmiryolBank, StandardBank, Bank Respublika, AzərTürkBank, Bank of Baku, Azərbaycan Sənaye Bankı, DebutBank, ƏmrahBank, XalqBank, KredoBank, Access Bank, ParaBank, RabitəBank, ZaminBank, o cümlədən TuranBank (3% səhmlərə sahib) – ödənilmiş 4 mln manat nizamnamə kapitalı ilə yaradılmışdır.

11 Senyabr 2006-cı il tarixində «MilliKart» MMC, Azərbaycan Respublikası Ədliyyə Nazirliyində Dövlət qeydiyyatından keçmişdir. «MilliKart» MMC-də 13 bank xidmət olunmaqdadır. Həmin banklar tərəfindən 80 000-dən artıq ödəniş kartları emissiya edilmiş, 200-dən artıq bankomat 2 200-dən artıq POS-terminal quraşdırılmışdır.

2008-ci ildə əlamətdar hadisələrdən biri də «AYİB»-in «MilliKart» MMC Prossesinq Mərkəzinin səhmdar kapitalı strukturuna daxil olması istiqamətində apardığı fəaliyyət olmuşdur. Hesabat ilində AYİB tərəfindən Mərkəzin səhmdar kapitalında 12%-lik iştirak payının 2009-cu ilin 2-ci yarımilliyində tamamlanması razılığı əldə olunmuşdur.

**«TuranLizinq» MMC:**

Bank əməliyyatlarının sürətli artımına paralel olaraq lizinq əməliyyatlarının da sürətli artımı ilbəil müşahidə olunmaqdadır. Bu sahədə potensial biznes imkanlarının mövcudluğunu nəzərə alaraq, TuranBank 2006-cı ildə Beynəlxalq Maliyyə Korporasiyasının (BMK), İsveçrənin İqtisadi Məsələlər üzrə Dövlət Katibliyi (SECO) ilə Azərbaycanda Lizinqin İnkişafı Layihəsi üzrə həyata keçirdiyi proqram çərçivəsində bankın lizinq törəmə qurumunun yaradılması istiqamətində qarşılıqlı anlaşma memorandumu imzalamışdır.

BMK tərəfindən göstərilən texniki yardımın nəticəsi olaraq, 21 Avqust 2006-cı ildə 100% səhmləri TuranBanka aid olan «TuranLizinq» MMC dövlət qeydiyyatından keçərək təsis edilmişdir.

Lizinq fəaliyyətinin genişləndirilməsi və bir sıra potensial layihələrin reallaşdırılması məqsədilə, ABŞ-ın Exim Bank, İsveçrənin BCP Bankı, Rusiyanın RosselxozBank və eyni zamanda Belarusiyanın lider banklarından olan «BelAqropromBank»la məhsuldar danışıqlar aparılmış və gələcək fəaliyyətin prioritet istiqamətləri müəyyənləşdirilmişdir.





# Korporativ İdarəetmə

Effektiv korporativ idarəetmə sisteminin yaradılması bizim fəaliyyətimizin əsas İstiqamətlərindən biridir.

2007-ci ildən başlayaraq, TuranBank intitutsional inkişafının tərkib hissəsi kimi Azərbaycan Respublikasının Mərkəzi Bankının «Banklarda Korporativ İdarəetmə Standartlarının Tətbiqi qaydaları», Bazel Komitəsinin «Kredit təşkilatlarında korporativ idarəetmənin təkmilləşdirilməsi» tövsiyələrinə uyğun olaraq və beynəlxalq korporativ idarəetmə təcrübəsi nəzərə alınaraq, korporativ idarətmə sisteminin yaradılması və tətbiqi işinə başlanılmışdır.

Bankın korporativ idarəetmə sahəsində atılmış mühüm addımlardan biri də 2009-cu ilin may ayında «Biznes Etikası və Korporativ Davranış» Məcəlləsinin hazırlanmasıdır.

Bankda beynəlxalq korporativ idarəetmə standartlarının qabaqcıl təcrübəsinin tətbiq edilməsi səyinin nəticəsi kimi 5 iyun 2009-cu il tarixində Beynəlxalq Maliyyə Korporasiyasının Azərbaycan Korporativ İdarəetmə Layihəsinin 2-ci fazasına qoşulmasıdır. Elə həmin aydan başlayaraq IFC-nin ekspertləri tərəfindən TuranBankın menecmenti və struktur bölmələri ilə müsahibələr aparmış korporativ idarəetmənin qabaqcıl təcrübəsinin bankda tətbiq edilmə mərhələləri və tədbirlər toplusu hazırlanmışdır. Qeyd edək ki, 2 illik layihə çərçivəsində Bankın müxtəlif sahələrində aşağıdakı tədbirlər nəzərdə tutulmuşdur:

- Korporativ İdarəetmə Məcəlləsinin hazırlanması
- Korporativ Katib vəzifəsinin yaradılması və həmin şəxs üçün təlimlərin keçirilməsi
- Maraqların Toqquşması və Aidiyyatı Şəxslərlə Əqdlərə dair Siyasətin hazırlanması
- Risklərin İdarəedilməsinə dair məsləhətlərin verilməsi
- Məlumatların açıqlanmasına dair Siyasətin hazırlanması və bu sahədə təcrübələrin təkmilləşdirilməsi
- Fəaliyyətin davamlılığına dair Siyasətin hazırlanması
- Dividend siyasətinin hazırlanması

Bundan əlavə, Bankın tədbirlər planında Səhmdarların Ümumi Yığıncağının Əsasnaməsinə düzəlişlərin edilməsi, Səhmdarların Ümumi Yığıncağı fəaliyyətinin qabaqcıl təcrübələrə yaxınlaşdırılması üçün tədbirlərin görülməsi, Müşahidə Şurasının fəaliyyətinin qabaqcıl təcrübələrə yaxınlaşdırılması üçün tədbirlərin görülməsi, İdarə Heyətinin fəaliyyətini qabaqcıl təcrübələrə yaxınlaşdırılması üçün tövsiyələrin verilməsi, Daxili Komitələrin fəaliyyətinə dair məsləhətlərin verilməsi və digər bu kimi tədbirlər nəzərdə tutulmuşdur.

2010-cu ildən etibarən icrası nəzərdə tutulan tədbirlər planının reallaşdırılması 2010-cu ilin, bu nöqteyi-nəzərdən bank üçün gərgin və intensiv tədbirlər ili olacağı deməyə imkan verir.

TuranBank öz müştəriləri və səhmdarlarının ona olan inamını daha da artırmaq məqsədilə, IFC-lə qarşılıqlı əməkdaşlıq çərçivəsində qabaqcıl Korporativ İdarəetmə standartlarının ən ali səviyyədə tətbiqini hədəfləmişdir. Bu istiqamətin bir hissəsi kimi, bankın orta səviyyəli menecmenti, filial direktorları, kredit mütəxəssisləri və bankın korporativ katibi üçün paritik məşğələlərin keçirilməsi nəzərdə tutulmuşdur.



# Risk Menecment

Qlobal böhran xüsusən ötən ilin sonuncu və cari ilin birinci rübündə Azərbaycan iqtisadiyyatının da artım sürətinə təsir etmiş, valyuta bazarında və bank sistemində müəyyən gərginlik yaratmışdı. Buna baxmayaraq, dövlətin həyata keçirdiyi uğurlu iqtisadi strategiya nəticəsində ölkə qlobal böhranı kifayət qədər hazırlıqlı qarşılamış, yaradılmış iri həcmli valyuta ehtiyatları iqtisadiyyatın yüksək maliyyə dayanıqlığını təmin etmişdir. Bu maliyyə yastığı hesabına iqtisadiyyatın likvidlik ehtiyacları vaxtında ödənilmiş, manatın məzənnəsinin və bank sisteminin sabitliyi qorunmuş, nəticədə ölkədə resessiyaya yol verilməmiş, optimal iqtisadi artım templəri qorunub saxlanmışdır.

Eyni zamanda Mərkəzi Bank çevik pul və məzənnə siyasəti vasitəsilə makroiqtisadi sabitliyin və dayanıqlığın qorunmasında fəal iştirak etmiş, ardıcıl olaraq antiböhran tədbirlərini həyata keçirmişdir. Beləki,manatın sabitliyi əhalinin gəlirləri və yığımlarını yüksək inflyasiyadan qorumuş, istehsal sahələrində istifadə olunan idxal məhsullarının kəskin bahalaşmasının qarşısını almışdır ki, bu həm də banklar qarşısında xarici valyutada öhdəlikləri olan iqtisadi subyektləri ciddi maliyyə itkilərindən qorumuş, bankların valyutada olan xarici borc yükünün artmasının qarşısını almış və bank sektoru qlobal iqtisadi böhranı kifayət qədər hazırlıqlı, yüksək kapitallaşma, maliyyə və likvidlik ehtiyatlanması ilə qarşılamışdır. Bank nəzarəti siyasəti sistem üzrə risklərin minimallaşmasını təmin etmiş, bankların risklərlə davranma potensiallarını artırmış və sektorda güclü maliyyə immuniteti yaratmışdır.

Qlobal iqtisadi böhranın mənfi fəsadlarından qorunmaq TuranBank ASC-nin fəaliyyətində də önəmli yerlərdən birini tutmuşdur. Beləki, bank Risklərin İdarə Edilməsini xüsusi diqqət mərkəzində saxlamışdır. Bu böhran dövründə və böhrandan sonrakı – refilyasiya dövründə də özünü əsaslı şəkildə göstərərək bankın öz fəlsəfəsinə; etibarlılıq, təhlükəsizlik, düzgünlük, şəffaflıq, yüksək keyfiyyətli xidmət, müştəri ilə tərəfdaşlıq, gəlirlilik, Azərbaycan iqtisadiyyatına xidmət, ölkə qanunlarına hörmət və riayət və s. sadiq qalmasını təmin etmişdir. Bankda Risklərin İdarə Edilməsi işinin daha da təkmilləşdirilməsi istiqamətində İFC, GARP və s. beynəlxalq qurumlarla, o cümlədən ABTC ilə sıx əməkdaşlıq edilmişdir.

Hal-hazırda «TuranBank» ASC-də Risklərin İdarə Edilməsi departamenti bankın bütün fəaliyyət göstərən struktur bölmələrinin fəaliyyətindən irəli gələn riskləri müəyyən etməklə, ölçməklə, nəzarət və monitorinq etməklə idarə edir.

Bank biznes subyektləri arasında maliyyə vasitəçisi olduğundan,riski qəbul edərək onu idarə etmək bank biznesinin mənşəyindən irəli gəldiyindən «TuranBank» ASC-də bu ənənəyə sadiq qalaraq standart avropa bankçılığında olduğu kimi risklərin idarə olunmasını aşağıdakı iерarxik səviyyələrdə təsnifləşdirmişdir:

a) Strateji səviyyə: Burada risklərin İdarə edilməsi İdarə Heyəti və Müşahidə Şurası səviyyəsində aparılır. Belə ki, bu səviyyədə risklərin idarə olunması risklərin müəyyən olunması, onların idarə edilməsi və risklərin xarakterindən, baş vermə tezliyindən, vurduğu zərərin həcmindən asılı olaraq strategiya və siyasətin hazırlanması, risklərin baş verdiyi hallarda adekvat sistemlərin yaradılması, risklərin qəbul olunan yəni idarə edilə bilən səviyyədə saxlanılması üçün müəyyən alətlərin seçilməsi kimi tədbirlərin görülməsi ilə nəticələnir.
b) Makro səviyyə: Burada risklərin idarə edilməsi adətən bankın müxtəlif maliyyə fəaliyyəti ilə məşğul olan müxtəlif struktur vahidlərinin menecment heyəti tərəfindən təşkil edilmiş komitələr tərəfindən bankın risk strategiyasına və siyasətinə uyğun şəkildə həyata keçirilir.
c) Mikro səviyyə: Bu səviyyədə risklər yuxarıda qeyd olunan səviyyələr tərəfindən qoyulan limitlər çərçivəsində bankın maliyyə fəaliyyətini həyata keçirən struktur vahidləri tərəfindən idarə edilir.

Bundan başqa Bankda Risklərin İdarə Edilməsi ilə bağlı ayrı-ayrı risklərin; kredit, əməliyyat və bazar risklərinin müəyyən olunması, ölçülməsi və idarə olunması ilə bağlı prosedur qaydalar yazılmış və risklərin idarə olunmasında müvafiq alətlər tətbiq olunmuşdur.

Hal-hazırda Bankımız Risklərin İdarə Edilməsində əvvəlki illərlə müqayisədə kifayət qədər nailiyyətlər əldə etmiş və Risklərin İdarə Edilməsini təkmilləşdirərək aşağıdakı aspektlərə uyğun şəkildə təşkil etmişdir:

### I Risklərin İdarə Edilməsi strukturu

Bankda risklərin idarə olunması strukturu hərtərəfli olub bankın məruz qalacağı riskləri, o cümlədən bankın fəaliyyət göstərdiyi biznes sahəsində əmələ gələcək dəyişikliklərə həssas olaraq risklərin idarə olunmasında proqressiv prosedur və qaydalara söykənərək idarə olunur və özündə aşağıdakıları ehtiva edir:

a) Risklərin müəyyən olunması, qəbul olunması, ölçülməsi, monitorinq olunması, hesabatlılıq və nəzarət;
b) Risklərin struktur vahidlər tərəfindən idarə edilməsini və həmin struktur vahidlərin məsuliyyətlərini;
c) İnformasiyanın əməliyyat səviyyəsindən menecment səviyyəsində idarə olunmasına çevirən idarəedici informasiya sisteminin mövcudluğu;
d) Sistemin və prosedurların işləməsini və onların inkişafa meyilli dəyişməsini təmin edən mexanizm.

### II Risklərin İdarə Edilməsində bütövlülük

Bankda risklərin idarə olunması zamanı bankın çoxtərəfli fəaliyyəti ilə əlaqədar gələcəkdə məruz qala biləcəyi risklər ayrı-ayrılıqda deyil bütöv şəkildə analiz olunur ki, bu da bir riskin digər başqa bir risk törətməsinin qarşısının alınmasına, riskin nəzarət və idarə olunan səviyyədə saxlanmasına zəmin yaradır.





### III Risklərin İdarə Edilməsində məsuliyyətlilik

Bankda risklərin idarə edilməsində fəaliyyət göstərən struktur vahidlərin və şəxslərin hərəkətlərinin nəticələri daxili audit və risklərin monitorinqi strukturu tərəfindən təftiş olunur ki, bu da onların həmin sferada yalnız olmalarına və banka zərər vurmalarının qarşısını almaq məqsədini daşıyaraq risklərin daha effektiv idarə edilməsinə səbəb olur.

### IV Risklərin qiymətləndirilməsi və ölçülməsi

Risklər bankın analitik risk analiz etmək bacarığına malik risk-idarəetmə heyəti tərəfindən müxtəlif metodlar, modellər, riyazi alətlər və sistemlərin köməyi ilə ölçüləbilən səviyyəyə gətirilərək qiymətləndirilir. Qiymətlədirilmə zamanı risklərin kütləsi, başvermə tezliyi, vura biləcəyi zərərin məbləği nəzərə alınaraq həmin risklər üçün xarakterik idarə etmə üsulları tətbiq olunur.

### V Risklərin İdarə Edilməsində Müstəqil baxış və ya Monitorinq

Risklərin idarə edilməsi fəlsəfəsinə uyğun olaraq standart bankçılıqda olduğu kimi Bankımızda riski öz üzərinə götürən tərəf-struktur vahidlə onu müəyyən edən, ölçən və qiymətləndirən struktur vahidin eyni olmamasıdır. Bu struktur müstəqil olaraq geniş səlahiyyətlərə malik olub, öz işlərinin nəticələrini qüsursuz surətdə risklərin idarə edilməsində qərarların qəbul olunması üçün İdarə Heyətinə ötürür ki, bu da risklərin lazımi səviyyədə idarə olunmasına zəmin yaradır.

### VI Gözlənilməz halların planlaşdırılması

Bankda risklərin idarə edilməsi üçün mexanizm yaradılmışdır ki, bu da bankın fəaliyyətində baş verə biləcək arzuolunmaz halları əvvəlcədən müəyyən etmək və bu cür şəraitdə bütün növlərdə olan riskləri müəyyənləşdirərək vaxtında, effektiv tərzdə fəaliyyət göstərmək və bu kimi şəraitləri müntəzəm olaraq qiymətləndirmək, həmin halların bankın gələcək fəaliyyətinə arzuolunmaz təsir etmək ehtimalları planlaşdırılır. Bu da öz növbəsində risklərin qabaqcadan görülməsinə, yumşaldılmasına və idarə edilə bilən çərçivəyə saxlanmasına əvvəlcədən imkan verir.

Qlobal iqtisadi böhranın mənfi fəsadlarına baxmayaraq «TuranBank» ASC bu kimi mənfi fəsadlardan etibarlı qorunmuş və bankın fəaliyyətinin nəticələrinin artım templərinin davamlılığını qoruyub saxlamışdır.

Bu gün «TuranBank» ASC öz yüksək mənfəətliliyini və investisiya cəlbediciliyini qoruyub saxlayır.

# Antikrizis Menecment

2008-ci ildən başlayan qlobal maliyyə böhranı 2009-cu ilin 1-ci rübündə öz kritik həddinə çatmışdır. Bank sektorundan başlayan böhran dünyanın əksər ölkələrində istehsalın azalması, işsizliyin artması, əhalinin gəlirlərinin azalması kimi neqativ tendensiyaya səbəb olmuşdur.

Təbii ki, qlobal maliyyə bazarının bir hissəsi olan Azərbaycan maliyyə bazarı xüsusilə, yerli banklar da bu böhrandan təsirlənmişdir. Nəzərə alsaq ki, 2008-ci ilin sonu krizisin hələ başlanğıc etapı olmuşdur, bu sahədə artıq Milli Bank tərəfindən də preventiv tədbirlər görülmüş, uçot dərəcəsi aşağı salınmış, bankların kapitallaşması prosesini sürətləndirmək məqsədi ilə mənfəətin kapitalın artırılmasına yönəldilən hissəsinin üç il ərzində vergidən azad edilməsi kimi ölkədaxili maliyyə bazarının stabilliyinin təmin edilməsi və rəqabət qabiliyyətinin artırılması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Baxmayaraq ki, TuranBank-ın fəaliyyətində böhranın təsiri demək olar ki, hiss edilməmişdir, gələcəkdə yarana biləcək risklərin effektiv idarə olunması və minimallaşdırılması məqsədi ilə, bank fəaliyyətinin bütün istiqamətləri yenidən monitorinq edilmiş, mövcüd nöqsanlar və boşluqlar müəyyənləşdirilmişdir.

Kreditlərin verilməsi sahəsində də dəyişikliklər edilmiş, kredit vermə prosedurları və tələblər daha da sərtləşdirilmişdir. 2008-ci ilin sonunda yaradılan bank daxili «anti-böhran» qrupu anti-böhran tədbirlər planının hazırlanması işinə başlamışdır. Qeyd edək ki, böhranın təsirinin bankımızdan yan ötməsinin əsas səbəbi Bankın diversifikasiya olunmuş kredit əməliyyatları olmuşdur. 2009-cu ildə digər atılan mühüm addımlardan biri də kredit portfelinin diversifikasiya olunması istiqamətində tədbirlərin görülməsi və diversifikasiya strategiyasının qarşıdakı illər üçün də qorunub saxlanılmasıdır.

Ümumi böhran şəraitində «anti-böhran» qrupu həmçinin, orta və uzun dövr üçün hədəflənən institutsional layihələrin müasir makroiqtisadi vəziyyətə davamlılığı konteksində stress testlərin aparılması, idarəetmədə nəzarət sistemlərinin çevik fəaliyyətinin təşkili, likvidliyin daha səmərəli idarə edilməsi, bir borcalana limitlərin azaldılması, bank aktiv və passivlərinin qlobal və yerli makro proseslərdə ehtimal olunan dəyərsizləşməsinin qarşısının alınması, kapitallaşma istiqamətli strategiyanın davam etdirilməsi və s. istiqamətli tədbirlər həyata keçirilmişdir.

Bankımızın qarşısında duran əsas məqsədlərdən biri post-krizis dövründə bankın bütün əməliyyatlarında meydana çıxa biləcək risklərin minimumlaşdırılmasıdır. Bu cür hallar xüsusilə gələcəkdə baş verə biləcək böhranlarda bankın əməliyyatlarına dəyən zərərin minimumlaşdırılması nöqteyi-nəzərdən çox vacib əhəmiyyət kəsb edir.

# Çirkli pulların yuyulması və terrorizmin maliyyələşdirilməsinə qarşı görülən tədbirlər

Ötən illərdə olduğu kimi, 2009-cı ildə də TuranBank Çirkli Pulların Yuyulmasının (ÇPY) və terrorizmin maliyyələşdirilməsinin qarşısını almaq istiqamətində aktiv fəaliyyətini davam etdirmişdir. Hələ 2004-cü ildə bank tərəfindən «Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında», «Banklar haqqında» Azərbaycan Respublikası Qanunlarının, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq konvensiyaların tələblərinə, Maliyyə Tədbirləri Üzrə İşçi Qrupu – FATF-ın tövsiyələrinə, Bank Nəzarəti üzrə Bazel Komitəsinin, «Volfsberq» prinsiplərinə əsasən ÇPY-sı və terrorizmin maliyyələşdirilməsinə qarşı daxili qayda və təlimatlar işləyib hazırlanmışdır. 2009-cı ildə isə bu istiqamətdə daxili qanunvericilik, normativ hüquqi baza təkmilləşdirilmiş, müvafiq bank işçiləri ABTM tərəfindən ÇPY-ı və terrorizmin maliyyələşdirilməsinə qarşı treyninq, kurs və seminarlarda mütəmadi iştirak etmişlər.



ÇPY və terrorizmin maliyyələşdirilməsinə qarşı bank tərəfindən qəbul edilən mühüm sənədlər sırasında həmçinin ÇPY və terrorizmin maliyyələşdirilməsinin qarşısını almaq istiqamətində deklarasiya və «Öz Müştərini Tanı» siyasəti var. Bank tərəfindən ÇPY və terrorizmin maliyyələşdirilməsi istiqamətində qəbul edilən bütün daxili normativ hüquqi bazanın əsasını müştərilər və əməliyyatların identifikasiyası, əməliyyatlar üzrə sənədlərin saxlanılmasına dair müvafiq normativ sənədlər təşkil edir.

Qeyd edək ki, 2009-cu ildə ÇPY və terrorizmin maliyyələşdirilməsinə qarşı beynəlxalq və ölkədaxili normativ hüquqi bazada baş verən dəyişiklikləri nəzərə alaraq yeni ÇPY və Terrorizmin maliyyələşdirilməsinə qarşı daxili qaydalar yenidən hazırlanmış və iyun ayında Müşahidə Şurası tərəfindən təsdiq edilmişdir. Yeni qaydalarda xüsusilə müvafiq struktur bölmələrin səlahiyyətləri, daxili nəzarət qaydaları, müştərilərin risk qrupları üzrə identifikasiyası, xüsusi diqqət yetiriləsi əməliyyatları, uyğunluq mütəxəssisinin səlahiyyət və vəzifələri, monitorinq və hesabatlılıq qaydaları müəyyənləşdirilmiş və bu kimi digər əhəmiyyətli əlavə və dəyişikliklər edilmişdir. Eyni zamanda uyğunluq mütəxəssisi (compliance officer) təyin edilmişdir.

Bankda ÇPY və terrorizmin maliyyələşdirilməsinə qarşı görülən tədbirlərin sırasına həmçinin «ÇPY və terrorizmin maliyyələşdirilməsinə qarşı» bankdaxili prosedur və qaydalara riayət edilməsi, müştəri əməliyyatlarının yoxlanılması və Mərkəzi Bank tərəfindən yenilənən terrorist təşkilatlarının və ölkələrinin siyahısının mütəmadi izlənilməsi prosesinin təkmilləşdirilməsi məqsədi ilə 6 struktur bölmə rəhbərlərindən ibarət işçi qrupu yaradılmışdır.





# İnformasiya Texnologiyaları

İnformasiya Texnologiyaları Bankın inkişafında ən önəmli yerlərdən birini tutur. XX əsrin ortalarından güclü inkişafa başlamış bu sahə hal hazırda günün tələbinə çevrilmişdir. İndi heç bir orta və iri həcmli müəssisəni bu sahədən kənarda təsəvvür etmək belə mümkün deyildir. «TuranBank» ASC-də də informasiya texnologiyaları sahəsinin inkişaf etdirilməsi əsas prinsiplərdən sayılır və bankın inkişafında bu sahənin çox böyük əhəmiyyətinin olması qəbul edilir.

2009-cu ildə TuranBank İnformasiya Texnologiyaları sahəsində bir çox yeniliklər etdi. Belə ki, 2009-cu ilin əvvəllərindən etibarən TuranBank «Azərbaycan Respublikası Mərkəzi Bankı» tərəfindən yaradılmış Kommunal Ödənişlərin Mərkəzləşdirilmiş İnformasiya sisteminə qoşulmaqla müştərilərdən kommunal ödənişlərin yığılmasına başladı. Bundan sonra bank müştərilərə keyfiyyətli xidmət məqsədilə «Azərbaycan Respublikası Vergilər Nazirliyi» ilə bank arasında elektron sənəd dövriyyəsinin təşkil edilməsi barədə kollektiv sazişə qoşuldu və Vergilər Nazirliyi və bank arasında şəhadətnamə dublikatların, müştəri hesablarına qoyulmuş sərəncamların elektron sənəd dövriyyəsi vasitəsilə icrasını təmin etdi. Bankın internet saytı Amerika Birləşmiş Ştatlarında yerləşən serverdən respublikamızda olan serverlərə köçürüldü ki, bununla da saytın daha dayanıqlı işləməsi təmin edildi. Həmçinin bankın elektron poçt sistemində dəyişikliklər edildi ki, bu da bankdaxili yazışmaların daha effektiv və sürətliliyini təmin etdi. Bank daxilində İT sistemlərinin istifadəçiləri üçün «Help Desk» xidməti proqram təminatı yaradıldı ki, bu da sistemlərlə iş zamanı yaranan ən kiçik nasazlıqların həm qısa zaman ərzində aradan qaldırılmasını, həm də nasazlıqların təhlil edilməsi üçün informasiyanın avtomatlaşmış şəkildə yığılmasını təmin etdi. Bundan əlavə bankın «Nur» filialı yeni ofisə köçürüldü, yeni ofisin bütün sistemləri müasir standartlara uyğun şəkildə quraşdırıldı.

Filiallarda bankın informasiya sistemindən sənədlərin çap edilməsinin sürətləndirilməsi üçün «Thin Print» texnologiyası və proqram təminatı uğurla tətbiq edildi. Azercell, Bakcell və Nar Mobile operatorlarına ödənişlərin qəbul edilməsi üçün olan sistemlərə qoşulma mərkəzləşdirildi və bunun köməyi ilə hər filialda bir telefon xəttinin məşğul edilməsi aradan qaldırıldı. Bankın güclü ehtiyat mərkəzinin yaradılması üçün Azərbaycanın İnformasiya Texnologiyaları sahəsində ən qabaqcıl şirkətlərlə birgə layihə hazırlandı və bu layihənin bir hissəsi olaraq bankın Sumqayıt filialı ilə Baş ofis arasında 10 mb/san sürətli rabitə təmin edildi. Bankın müştərilərlə əlaqələrinin gücləndirilməsi, müştərilərə daha diqqətli yanaşmanın təmin edilməsi üçün «Müştəri profaylı» adlı yeni proqram təminatı yaradıldı. Həmçinin büdcənin idarə edilməsi üçün yeni proqram təminatı bankın İnformasiya Texnologiyaları Departamenti tərəfindən yaradıldı. Mis xətlərlə çəkilmiş telefonların böyük hissəsi ləğv edildi, əvəzində fiberoptik kabellər vasitəsilə daha keyfiyyətli telefon rabitəsi yaradıldı.

Bank növbəti ildə də İnformasiya Texnologiyaları sahəsinə investisiyaların yatırılmasını nəzərdə tutur. Bu isə bankın müştərilərin növbəti illərdə də keyfiyyətli və təhlükəsiz xidmətlə təmin olunacağına zəmanət verir.



PRICEWATERHOUSECOOPERS

PricewaterhouseCoopers
Audit Azerbaijan LLC
The Landmark Office Plaza III
12th floor, 90 A Nizami Street
Baku AZ 1010, Azerbaijan
Telephone [994] 12 4972515
Facsimile [994] 12 4977411
www.pwc.com

## MÜSTƏQİL AUDİTORUN HESABATI

Turanbank Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinə:

Biz, Turanbank Açıq Səhmdar Cəmiyyətinin ("Qrup") 31 dekabr 2009-cu il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatı və həmin tarixdə tamamlanan il üzrə konsolidasiya edilmiş məcmu gəlirlər, konsolidasiya edilmiş səhmdar kapitalında dəyişikliklər və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından, eləcə də əsas uçot siyasətinin və digər izahedici qeydlərin xülasəsindən ibarət olan əlavə edilmiş konsolidasiya edilmiş maliyyə hesabatlarının auditini aparmışıq.

*Maliyyə Hesabatları üzrə Rəhbərliyin Məsuliyyəti*
Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə görə Rəhbərlik məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sisteminin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

*Auditorun Məsuliyyəti*
Bizim məsuliyyətimiz apardığımız audit əsasında həmin konsolidasiya edilmiş maliyyə hesabatları üzrə rəy bildirməkdir. Biz, auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Həmin Standartlar bizdən etik normalara riayət etməyi və və auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə kifayət qədər əmin olacaq tərzdə həyata keçirməyi tələb edir.

Auditə maliyyə hesabatlarındakı məbləğlər və açıqlamalara dair audit sübutunun əldə edilməsi üçün prosedurların həyata keçirilməsi daxildir. Seçilmiş prosedurlar auditorun mülahizəsindən, eləcə də fırıldaqçılıq və ya səhv nəticəsində maliyyə hesabatlarının əhəmiyyətli dərəcədə təhrif edilməsi risklərinin qiymətləndirilməsindən asılıdır. Həmin riskləri qiymətləndirərkən auditor müəssisənin daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə görə müvafiq audit prosedurlarının işlənib hazırlanması məqsədilə müəssisə tərəfindən maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarət sistemini nəzərdən keçirir. Bundan əlavə, auditə mövcud uçot siyasətinin uyğunluğunun və rəhbərliyin uçot ehtimallarının əsaslandırılmasının qiymətləndirilməsi, eləcə də maliyyə hesabatlarının ümumi təqdimatının dəyərləndirilməsi daxildir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.

*Rəy*
Bizim rəyimizcə, əlavə edilən konsolidasiya edilmiş maliyyə hesabatları 31 dekabr 2009-cu il tarixinə Bankın maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini bütün əhəmiyyətli aspektlər baxımından Beynəlxalq Maliyyə Hesabatı Standartlarına uyğun olaraq düzgün əks etdirir.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

Bakı, Azərbaycan Respublikası
18 may 2010-cu il





***Turanbank Açıq Səhmdar Cəmiyyəti***
***Konsolidasiya Edilmiş Maliyyə Vəziyyəti haqqında Hesabat***

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 31 dekabr 2009 | 31 dekabr 2008 |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 7 | 17,364 | 6,637 |
| Digər banklardan alınacaq vəsaitlər | 8 | 750 | 142 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 9 | 76,506 | 65,534 |
| Satıla bilən investisiya qiymətli kağızları | 10 | 3,375 | 2,186 |
| İnvestisiya mülkiyyəti | | 358 | 358 |
| Binalar və avadanlıqlar | 12 | 7,549 | 7,604 |
| Qeyri-maddi aktivlər | 12 | 72 | 67 |
| Təxirə salınmış vergi aktivi | 26 | 7 | - |
| Digər maliyyə aktivləri | 13 | 37 | 25 |
| Digər aktivlər | 14 | 65 | 109 |
| **CƏMİ AKTİVLƏR** | | **106,083** | **82,662** |
| **PASSİVLƏR** | | | |
| Digər banklara ödəniləcək vəsaitlər | 15 | 7,579 | 18,674 |
| Müştəri hesabları | 16 | 44,776 | 30,851 |
| Borc götürülmüş digər vəsaitlər | 17 | 32,542 | 12,622 |
| Təxirə salınmış vergi öhdəliyi | 26 | - | 121 |
| Cari vergi öhdəliyi | 26 | 78 | 94 |
| Digər maliyyə passivləri | 18 | 152 | 165 |
| Digər passivlər | 19 | 45 | 155 |
| **CƏMİ PASSİVLƏR** | | **85,172** | **62,682** |
| **KAPİTAL** | | | |
| Nizamnamə kapitalı | 20 | 17,000 | 16,000 |
| Digər ehtiyatlar | 21 | 1,068 | 1,041 |
| Bölüşdürülməmiş mənfəət | | 2,843 | 2,939 |
| **CƏMİ KAPİTAL** | | **20,911** | **19,980** |
| **CƏMİ PASSİVLƏR VƏ KAPİTAL** | | **106,083** | **82,662** |

18 may 2010-cu il tarixində İdarə Heyəti adından imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

Cənab Nazim Sadiqov
İdarə Heyətinin Sədri

Cənab Əlizaman İbrahimov
Maliyyə Menecmenti Departamentinin Direktoru

***Turanbank Açıq Səhmdar Cəmiyyəti***
***Konsolidasiya Edilmiş Məcmu Gəlirlər haqqında Hesabat***

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 2009 | 2008 |
|---|---|---|---|
| Faiz gəlirləri | 22 | 10,465 | 10,046 |
| Faiz xərcləri | 22 | (4,960) | (5,056) |
| **Xalis faiz gəlirləri** | | **5,505** | **4,990** |
| Kreditlərin dəyərsizləşməsi üzrə ehtiyat | 9 | (1,035) | (390) |
| **Ehtiyat ayırmalarından sonra xalis faiz gəlirləri** | | **4,470** | **4,600** |
| Haqq və komissiya gəlirləri | 23 | 1,175 | 1,141 |
| Haqq və komissiya xərcləri | 23 | (204) | (144) |
| Xarici valyuta ilə əməliyyatlar üzrə gəlir – zərər çıxılmaqla | | 274 | 260 |
| Xarici valyuta mövqeyinin yenidən qiymətləndirilməsi üzrə gəlir – zərər çıxılmaqla | | 24 | 17 |
| Digər əməliyyat gəlirləri | 24 | 118 | 98 |
| İnvestisiya mülkiyyətinin ədalətli dəyərində dəyişiklik | | - | 108 |
| İnzibati və digər əməliyyat xərcləri | 25 | (3,709) | (3,264) |
| **Vergidən əvvəlki mənfəət** | | **2,148** | **2,816** |
| Mənfəət vergisi xərci | 26 | (133) | (563) |
| **İL ÜZRƏ MƏNFƏƏT** | | **2,015** | **2,253** |
| **Digər məcmu gəlirlər:** | | | |
| Binaların yenidən qiymətləndirilməsi | | - | 208 |
| Mənfəət vergisinin təsiri | | 27 | (46) |
| **İl üzrə digər məcmu gəlirlər** | | **27** | **162** |
| **CƏMİ İL ÜZRƏ MƏCMU GƏLİRLƏR** | | **2,042** | **2,415** |
| **İl ərzində Qrupun səhmdarlarına düşən mənfəət üçün səhm üzrə mənfəət (bir səhm üzrə AZN ilə):** | | | |
| – Əsas/Azaldılmış | 27 | 0.12 | 0.16 |





***Turanbank Açıq Səhmdar Cəmiyyəti***
***Konsolidasiya Edilmiş Səhmdar Kapitalında Dəyişikliklər haqqında Hesabat***

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Digər ehtiyatlar | Cəmi səhmdar kapitalı |
|---|---|---|---|---|---|
| **1 yanvar 2008-ci il tarixinə qalıq** | | **12,500** | **2,710** | **879** | **16,089** |
| **2008-ci il cəmi məcmu gəlirlər** | | **-** | **2,253** | **162** | **2,415** |
| Səhm emissiyası | 20 | 3,500 | - | - | 3,500 |
| Elan edilmiş dividendlər | | - | (2,024) | - | (2,024) |
| **31 dekabr 2008-ci il tarixinə qalıq** | | **16,000** | **2,939** | **1,041** | **19,980** |
| **2009-cu il cəmi məcmu gəlirlər** | | **-** | **2,015** | **27** | **2,042** |
| Səhm emissiyası | 20 | 1,000 | - | - | 1,000 |
| Elan edilmiş dividendlər | | - | (2,111) | - | (2,111) |
| **31 dekabr 2009-cu il tarixinə qalıq** | | **17,000** | **2,843** | **1,068** | **20,911** |

***Turanbank Açıq Səhmdar Cəmiyyəti***
***Konsolidasiya Edilmiş Pul Vəsaitlərinin Hərəkəti haqqında Hesabat***

| *Min Azərbaycan Manatı ilə* | Qeyd | 2009 | 2008 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Əldə edilmiş faizlər | | 9,689 | 9,628 |
| Ödənilmiş faizlər | | (4,581) | (5,047) |
| Əldə edilmiş haqq və komissiyalar | 23 | 1,175 | 1,141 |
| Ödənilmiş haqq və komissiyalar | 23 | (204) | (144) |
| Xarici valyuta ilə əməliyyatlardan əldə edilmiş gəlirlər | | 298 | 277 |
| Əldə edilmiş digər əməliyyat gəlirləri | 24 | 118 | 98 |
| İşçilərə ödənilmiş xərclər | 25 | (2,031) | (1,523) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | (1,128) | (1,347) |
| Ödənilmiş mənfəət vergisi | | (250) | (805) |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | **3,086** | **2,278** |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklər** | | | |
| Müştərilərə verilmiş kreditlər və avanslarda xalis artım | | (11,357) | (18,352) |
| Digər banklardan alınacaq vəsaitlərdə xalis (artım)/azalma | | (608) | 132 |
| Digər maliyyə aktivlərində xalis artım | | (12) | (28) |
| Digər aktivlərdə xalis azalma/(artım) | | 43 | (69) |
| Digər banklara ödəniləcək vəsaitlərdə xalis (azalma)/artım | | (11,095) | 5,760 |
| Müştəri hesablarında xalis artım | | 13,653 | 5,851 |
| Digər passivlərdə xalis (azalma)/artım | | (110) | 25 |
| Digər maliyyə passivlərində xalis azalma | | (13) | (37) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(6,413)** | **(4,440)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Satıla bilən investisiya qiymətli kağızlarının alınması | | (2,931) | (1,508) |
| Satıla bilən investisiya qiymətli kağızlarının satışından daxilolmalar və onların ödənilməsi | 10 | 1,742 | - |
| Binalar və avadanlıqların alınması | 12 | (431) | (1,657) |
| Binalar və avadanlıqların satışından daxilolmalar | | 4 | 65 |
| Qeyri-maddi aktivlərin alınması | 12 | (19) | - |
| Əldə edilmiş dividend gəlirləri | 24 | 76 | 57 |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | **(1,559)** | **(3,043)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | | |
| Borc götürülmüş digər vəsaitlərdən daxilolmalar | | 22,044 | 8,520 |
| Borc götürülmüş digər vəsaitlərin ödənilməsi | | (2,167) | (1,067) |
| Adi səhmlərin emissiyası | 20 | 1,000 | 3,500 |
| Ödənilmiş dividendlər | 28 | (2,111) | (2,024) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | | **18,766** | **8,929** |
| **Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri** | | **(67)** | **(1)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **10,727** | **1,445** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 7 | 6,637 | 5,192 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 7 | **17,364** | **6,637** |

**Qeyd:** 2009-cu il üzrə Auditor Hesabatının tam versiyası kompakt diskə əlavə olunmuşdur.